Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 104 (8127) ÇƏRŞƏNBƏ AXŞAMI, 14 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Prezident İlham Əliyevin Belçikaya səfəri ikitərəfli münasibətlərin genişləndirilməsinə mühüm töhfədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Belçika Krallığına işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikalıların Kralı Əlahəzrət Filip ilə görüşü olub.

Görüşdə Azərbaycan-Belçika ikitərəfli münasibətləri, regiondakı vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi.

Prezident İlham Əliyev Belçikalıların Kralı Əlahəzrət Filipə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunduğunu, münaqişənin həllinin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında və ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu və Prezident İlham Əliyevin Belçikaya səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsinə töhfə verəcəyi bildirildi.





## Azərbaycanın regiondakı rolu Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirildi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Ölkəmizin Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaş olduğunu qeyd edən Donald Tusk Azərbaycanın regiondakı rolunun Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər çox uğurla inkişaf edir və ölkəmiz bu əlaqələrin genişlənməsinə böyük önəm verir.

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Donald Tuska Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi barədə məlumat verdi.

Görüşdə ötən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyəti vurğulandı, həmçinin tərəflər arasında üzərində danışıqlar aparılan tərəfdaşlıq sazişi ilə bağlı fikir mübadiləsi aparıldı. Söhbət zamanı Azərbaycanın istər Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində və istərsə də ikitərəfli formatda Avropa İttifaqı ilə yaxından əməkdaşlığı xüsusi qeyd olundu.





## Göz nurunu itirənlərin ziya ocağı

### Mehriban Əliyevanın şəfqəti yüzlərlə uşağın dünyasını işıqlandırır

...Binanı üzük qaşı kimi dövrəyə alan hasarın kiçik darvazasına yaxınlaşıb, dəmir barmaqlıqlarla bəzədilmiş qapını açıb, yaşıllıqla əhatə olunmuş həyətə daxil oluruq. Mərmər pilləiəri qalxıb, binanın iri taxta qapısını yavaşca aralayaraq kandarından içəri giririk.



Qapıdakı mühafizəçidən başqa heç kim gözə dəymir. Bizi ilk olaraq insana hüzur verən xoş bir sükut qarşılayır. Heç elə bil yüzlərlə uşağın qaynayıb-qarışdığı məkan deyil. Amma bu sakitlik müvəqqətidir. Bir neçə dəqiqə sonra zəng vurulacaq və uşaqların səs-küyü, danışıqları, gülüşləri dəhliz boyu yayılaraq sükutu pozacaq...

Bura məktəbdir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün... Görmə qabiliyyəti zəif olan uşaqlar üçün... Bu dünyanın rənglərini, öz simalarını, valideynlərini, yoldaşlarını... - heç nəyi görməyən, yalnız xəyallarında təsəvvür edən uşaqlar üçün... Amma yalnız məktəb deyil... Bəziləri üçün ora həm də evdir... Həsrətində olduqları yuvadır... Arzuladıqları isti qucaqdır...

Ardı 5-ci səh.

## İdmanı bir daha siyasi alətə çevirmək cəhdi

### UEFA Avropa Liqasının finalı ərəfəsində ölkəmizə qarşı qarayaxma kampaniyası uğursuzluğa məhkumdur

Futbolsevərlər cari ayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final matçını səbirsizliklə gözləyirlər. İngiltərənin iki klubunun - "Arsenal" və "Çelsi"nin qarşılaşacağı oyunu izləmək üçün yerli azarkeşlər və iştirakçı komandaların fanatları indidən hazırlaşır, üstəlik, qonaqlar təyyarə bileti alır, mehmanxana sifariş edirlər. Öz növbəsində finalçı futbolçular hazırlıq işlərini görür, həlledici oyundan qabaq məşqlərini davam etdirirlər.

Təəssüf ki, final ərəfəsində həyəcanlananlar təkcə futbolçular və idmansevərlər deyillər. Avropada ənənəvi antiazərbaycançı dairələr növbəti dəfə ölkəmizə qarşı çirkin qarayaxma kampaniyasına start vermişdir. Böyük Britaniyanın Xarici İşlər Nazirliyi də daxil olmaqla bir sıra instansiyalar idmana heç bir aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələr irəli sürərək beynəlxalq ictimaiyyətdə mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmaması barədə rəy formalaşdırmağa çalışır.

Siyasətin idmana qarışması faktı yeni deyil. Mötəbər beynəlxalq forumlar, eləcə də mühüm idman tədbirləri ərəfəsində xarici siyasi dairələr müxtəlif bəhanələr gətirərək bəyənmədiyi ayrı-ayrı təşkilatçı ölkələrə təzyiq göstərməyə cəhd edirlər. Bu, Azərbaycan üçün də keçərlidir.

Ardı 4-cü səh.

## DSX-nin Qarabağ atları üzərində süvarilər dəstəsinin və rəqs ansamblının təqdim etdiyi şou-kompozisiya Britaniya Kraliçasının marağına səbəb olub



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının əfsanəvi Kraliçası Viktoriyanın şərəfinə təşkil edilən və bütün dünya atsevərlərinin böyük marağına səbəb olan "Vindzor Kral Atçılıq Şousu"na yekun vurulub.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, Azərbaycan Respublikasının Atçılıq Federasiyasının təşkilatçılığı ilə bu tədbirdə iştirak edən Dövlət Sərhəd Xidmətinin Qarabağ atları üzərində süvarilər dəstəsinin və rəqs ansamblının təqdim etdiyi "Azərbaycanın kəlağayısı və Qarabağ atları" adlı şou-kompozisiya Birləşmiş Krallığın taxt-tacının sahibi, Ülyahəzrət II Elizabetin, kral ailəsinin üzvlərinin və digər tamaşaçıların xüsusi marağına səbəb olub.

Ardı 3-cü səh.

# Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır








Mayın 13-də Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun adından Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə şam yeməyi verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şam yeməyində iştirak edib.

Əvvəlcə Prezident İlham Əliyev və prezident Donald Tusk birgə foto çəkdirdilər.

Sonra Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçıları rəsmi foto çəkdirdilər.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun adından Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak edən fəal ölkələrdən biridir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Avropa İttifaqına üzv ölkələrlə də sıx əlaqələrə malikdir. Belə ki, Azərbaycanın Avropa İttifaqının üzvü olan doqquz ölkə ilə əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır.





Dövlətimizin başçısı həmçinin bildirdi ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və təşkilatın üzv dövlətləri ölkəmizdə aparıcı sərmayəçi qismində çıxış edirlər.

Azərbaycan Prezidenti Şərq Tərəfdaşlığı Proqramının iştirakçısı olan Ermənistan və Azərbaycan arasında münaqişənin öz həllini tapmamasını təəssüflə qeyd etdi. Dövlətimizin başçısı torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini vurğulayaraq bildirdi ki, 25 ildən çoxdur bu münaqişə davam edir. Prezident İlham Əliyev qeyd etdi ki, bu münaqişə yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.

Prezident İlham Əliyev xatırlatdı ki, ötən il Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunub.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrində hasilatçı, tranzit və istehlakçı ölkələrin maraqları onların əməkdaşlığı çərçivəsində birgə şəkildə qorunur.

Dövlətimizin başçısı Azərbaycanın "Şərq-Qərb nəqliyyat dəhlizi"nin reallaşdırılmasında mühüm rol oynadığını qeyd edərək ölkəmizin Avropa İttifaqı ilə nəqliyyat sahəsində də uğurla əməkdaşlıq etdiyini bildirdi.

## F.M.Ələsgərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Fuad Murtuz oğlu Ələsgərov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2019-cu il*

## Avropa azərbaycanlıları Brüsseldə Azərbaycan Prezidentinə dəstək aksiyası keçiriblər






Mayın 13-də Avropa azərbaycanlılarının təşəbbüsü ilə Belçikanın paytaxtı Brüssel şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşılanması və ona dəstək aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, aksiyanın əsas təşkilatçısı Azərbaycan-Belçika Dostluq Cəmiyyətidir.

Dəstək aksiyasına Almaniya, Hollandiya, Macarıstan, Belçika, Fransa və digər Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və üzvləri qoşulublar.

Aksiyada "Cənab Prezident, Avropaya xoş gəlmisiniz!", "Cənab Prezident, Sizi salamlayırıq!" və sair şüarlar səsləndirən soydaşlarımız Azərbaycan dövlətinin başçısını və onun siyasi kursunu daim dəstəklədiklərini bəyan ediblər.

Aksiya iştirakçıları bundan sonra da Prezident İlham Əliyevə daim dəstək olacaqlarını bildiriblər.

# Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikasının Xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə Şərq Tərəfdaşlığı xarici işlər nazirlərinin görüşündəki çıxışında deyib.

Nazir bildirib ki, Aİ xarici ticarət dövriyyəmizdə təxminən 42 faizlik paya malik olmaqla, Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Həmçinin Aİ Azərbaycanda ən böyük investordur. Ənənəvi birgə Avropa İttifaqı-Azərbaycan Biznes Forumu Aİnin müxtəlif sənaye və xidmət sektorundan çoxlu nümayəndələr cəlb edir. Növbəti biznes forum bu il iyunun 13-də Bakıda keçiriləcək. İnanıram ki, bəzi və hətta ola bilsin ki, çoxlu sayda Aİ ölkələrindən olan şirkətlər Avropanın sənaye və biznes məqsədlərini Azərbaycanla birgə təmsil edəcəklər.

Biz Aİ ilə yeni ikitərəfli müqavilə ilə bağlı keyfiyyətyönümlü danışıqlar vasitəsilə ikitərəfli münasibətlərdə uğur əldə etməkdə maraqlıyıq. Biz bir-birimizdən və bir-birimiz barədə çox şey öyrənirik. Bu, özlüyündə çox məhsuldar işdir.

Bir neçə ilə sektoral əməkdaşlığımızın əsası kimi çıxış edəcək "Tərəfdaşlıq Prioritetləri" sənədinin imzalanması ilə yanaşı, biz keçən il Aİ ilə bir sıra məsələləri müzakirə etdiyimiz iki yeni sektoral format - təhlükəsizlik və nəqliyyat dialoqlarına başlamışıq və bu, bizə bir-birimizi daha yaxşı anlamağa kömək edir.

2017-ci ildə Brüsseldə keçirilmiş sonuncu Şərq Tərəfdaşlığı sammitində təklif edildi ki, Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq regiondakı müxtəlif təhdidlərin real mülahizələrinə əsaslanmalıdır. Diqqət Aİ ilə siyasi və ticarət əməkdaşlığının müxtəlif dərəcələrinə malik ölkələr üçün faydalara və potensial əlavə dəyərlərə yönəldilməlidir. Sonuncu sammit konkret məqsədlərə nail olmağı özündə əks etdirən "2020-ci il üçün 20 nəticə" adlı sənədi dəstəklədi. İnanırıq ki, tətbiq edildikdən sonra bu nəticələr regionumuza daha böyük dərəcədə davamlılıq, rifah, inkişaf və bağlılıq gətirmək imkanında olacaq. Lakin "2020-ci il üçün 20 nəticə" üzrə danışıqlar bərabər tərəfdaşlar arasındakı kimi baş tutmalıdır. Bu prosesin müvəffəqiyyəti nəzərəçarpacaq nəticələrdən asılı olacaq. Həmin məqsədlərdən bəziləri Azərbaycanın əsas sektorları üzrə Strateji Yol xəritələrinə uyğun gəlir.

Azərbaycanda dayanıqlı iqtisadi inkişafı və sosial-iqtisadi artımı təmin etmək məqsədilə institusional və struktur islahatlar davam etdirilir. Aparılmış islahatlar və təkmilləşdirilmiş biznes mühitinin nəticəsi olaraq, Azərbaycan Dünya Bankı tərəfindən dərc edilmiş sonuncu "Doing Business" hesabatına uyğun olaraq dünyada 25-ci yerdə qərarlaşıb. Həmçinin Davos Dünya İqtisadi Forumunun qiymətləndirmələrinə uyğun olaraq, artımın keyfiyyətinə görə 34-cü yeri tutur.

Azərbaycan hökuməti vətəndaşlarının bütün insan hüquq və fundamental azadlıqlarından tam yararlanmasını təmin etmək üçün genişmiqyaslı proqramlar həyata keçirməkdə davam edir. Bu xüsusda, 2019-2023-cü illərdə ədliyyə sisteminin təkmilləşdirilməsinə dair əlavə qanunvericilik və struktur tədbirlərini nəzərdə tutan ədliyyənin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramını qeyd etmək lazımdır.

Nazir qeyd edib ki, öz coğrafiyası və strategiyasına görə Asiya ilə Avropa arasında təbii körpü olan Azərbaycan həmişə regional və transregional bağlılıq təşəbbüslərinin fəal iştirakçısı və onların gerçəkləşdirilməsinə töhfə verən başlıca oyunçulardan olub. Bu səbəbdən, Azərbaycan üçün uzlaşma imkanları həm Aİ ilə ikitərəfli gündəlikdə, həm də Şərq Tərəfdaşlığı çərçivəsindəki çoxtərəfli müstəvidə mühüm yer tutmaqdadır. Nəqliyyat sahəsində Trans-Avropa Şəbəkəsinin indikativ xəritələrinin Azərbaycana və sonra Asiyaya qədər genişləndirilməsi regional ticarət dəhlizlərinin birlikdə təşviq edilməsi üçün möhkəm zəmin yarada bilər. Əslində, liman və dəmir yolları administrasiyaları, habelə Gürcüstan, Ukrayna, Polşa, Rumıniya, Avstriya, Almaniyadan olan bəzi özəl logistika şirkətləri artıq Azərbaycanla birlikdə bu regional ticarət dəhlizlərində təmsil olunublar. Bu siyahı artmaqda davam edir. Avropada bir çoxları bu strateji ticarət sahəsində Azərbaycanla əməkdaşlıqda maraqlıdır. Azərbaycan təqdim etdiyi fürsətləri və infrastrukturu qonşularla, eləcə də Asiya və Avropa ölkələri ilə bölüşür. Burada Şərq-Qərb, Şimal-Cənub və müəyyən sinergiya effekti də mümkündür, xüsusilə əgər biz Aİ-nin bəzi Asiya ölkələri ilə müxtəlif əməkdaşlıq strategiyalarını nəzərə alsaq. Açıq dənizə çıxışı olmayan ölkə olaraq, Azərbaycan öz quru sərhədlərindən kənara çıxıb geniş bölgə ərazisində daha böyük ticarət dinamikasının yaradılmasına çalışır. Beləliklə, yalnız bəzi misalları çəkərək deyə bilərəm ki, biz Niderland, Belçika, İtaliya, Rumıniyadan olan limanlarla etibarlı tərəfdaşlıq qurduq.




"Enerji sahəsində biz "Cənub qaz dəhlizi"nin həyata keçirilməsi vasitəsilə strateji tərəfdaşlığımızı davam etdiririk. Bu layihə üzrə aparılan işlərin əsas hissəsi artıq yekunlaşdırılıb. Transadriatik Boru kəməri (TAP) isə inşa olunmasının ən son mərhələsindədir. Biz, həmçinin qaz dəhlizimizin coğrafi baxımdan genişləndirilməsi üzərində düşünürük. Lakin daha çox öngörülə bilən şərait Aİ-yə Azərbaycandan olan daha böyük həcmdə təbii qazı cəlb edə bilər. Elə buna görə də dəhlizin növbəti mərhələlərdə inkişafı üçün Aİ tərəfindən öngörülə bilən qaydaların təmin edilməsi çox vacibdir. Bu fürsətdən istifadə edərək, "Cənub qaz dəhlizi"nin Azərbaycan və Aİ-nin birgə uğuruna çevrilməsi məqsədilə bəzi Avropa paytaxtlarından olan həmkarlarımızı əlindən gələni əsirgəməməyə çağırmaq istərdim", - deyə nazir bildirib.

E.Məmmədyarov diqqətə çatdırıb ki, hərəkətlilik (mobillik) və insanlararası təmasların təşviqi Aİ-Azərbaycan əməkdaşlığında çox mühüm istiqamətlərdən biridir. Hərəkətlilik sahəsində tərəfdaşlıq, habelə Readmissiya və viza rejiminin sadələşdirilməsi sazişləri bu istiqamət üzrə irəliləyişə müstəsna töhfə verib. Azərbaycan tərəfi bu sənədlərin tam həcmdə və səmərəli şəkildə yerinə yetirilməsinə sadiqdir. Readmissiya və viza rejiminin sadələşdirilməsi haqqında sazişlərin uğurlu yerinə yetirilməsi yaxın gələcəkdə viza liberallaşdırılmasının perspektivlərini aça bilər.

Bu gün Azərbaycan, demək olar ki, bütün qonşuları ilə çox yaxşı, bəziləri ilə isə strateji xarakterli münasibətlərindən məmnunluq duyur. Qonşularla münasibətlər prioritetdir. Azərbaycan özünü regionda, eləcə də Aİ ilə münasibətlərində etibarlı tərəfdaş kimi doğruldub. Təəssüflər olsun ki, Aİ-nin və Azərbaycanın qonşuluğunda bəzi məsələlər hələ də təkmilləşdirilməlidir. Bir sıra regional perspektivlər, o cümlədən bağlılıq, ticarət layihələri və bəzi digər təşəbbüslər həll edilməmiş münaqişələrin girovu olaraq qalmaqdadır. Ermənistan tərəfindən davam etdirilən Azərbaycan ərazilərinin işğalı bütün bölgəmizin daha yüksək əməkdaşlıq səviyyəsinə keçməsinə maneələr törədir. Biz bölgənin tam potensialını açdırmalıyıq. Əgər biz birlikdə Şərq Tərəfdaşlığı vasitəsilə irəliləyiriksə, onda Aİ-nin qonşuluq siyasətinin məqsədlərinə nail olmaq üçün münaqişələrin nizamlanması və işğalın aradan qaldırılması məsələləri öz həllini tapmalıdır. Avropa Parlamenti tərəfindən 2013-cü ilin oktyabrında qəbul edilmiş qətnamədə bəyan edildiyi kimi, Aİ-nin bir tərəfdaşı digər tərəfdaşının ərazisini işğal edə bilməz. Beləliklə, burada təkcə BMT Təhlükəsizlik Şurası, BMT Nizamnaməsi və ya ATƏT sənədləri deyil, Aİ-nin qanunverici qurumu hər şeyi öz adı ilə adlandırıb. İnanırıq ki, Şərq Tərəfdaşlığının gələcəyi və uğuru məhz bölgədə təhlükəsizlik və sabitliyin qoruna biləcəyindən asılıdır.

Buna görə Aİ və onun üzvləri daxil olmaqla, Şərq Tərəfdaşlığında iştirak edən bütün tərəflər ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərini tam şəkildə dəstəkləməli və onlara əməl etməlidir. Bu mövqeyə bütün səviyyələrdə və bütün formatlarda qəbul olunan sənədlərdə riayət olunmalı və məhz belə yanaşma əsas meyar kimi götürülməlidir.

Nazir sonda qeyd edib ki, Ermənistanın demokratik inkişafı bu ölkəni Azərbaycanla substantiv danışıqlar aparmağa sövq edəcək və bu, öz növbəsində, etnik təmizləməyə məruz qalmış azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıtmasına gətirəcək.

# İlham Əliyevin regional inkişaf strategiyası müsbət nəticələr verməkdə davam edir



**Dünyada hər bir ölkənin özünəməxsus sosial-iqtisadi inkişaf konsepsiyası var. Azərbaycan da istisna deyil. Qeyri-neft sektorunun və regionların sosial-iqtisadi inkişafı ölkəmizdə bu konsepsiyanın mühüm istiqamətləridir. Elmi əsaslara söykənən, ölkənin inkişafını təmin edən bu iki konsepsiya Azərbaycanda paralel həyata keçirilir və nəticədə qeyri-neft sektorunda və regionlarda yüksək inkişaf tempi müşahidə olunur.**

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası sayəsində iqtisadiyyatın müxtəlif sahələri ilə bərabər, kənd təsərrüfatında da böyük uğurlar qazanılıb. Rəqəmlərə nəzər salaq: 2004-cü ildə ölkə üzrə 196 min ton ət tədarük edilmişdisə, keçən il bu rəqəm 326 min tona çatıb. Həmin dövrdə süd istehsalı 1 milyon 200 min, ötən il 2 milyon ton olub. Növbəti 5 il ərzində isə həm ət, həm də süd istehsalını daha 15-20 faiz artırmaq nəzərdə tutulub. Digər misal: əgər 2004-cü ildə Azərbaycanda 44 min ton quş əti istehsal edilmişdisə, ötən il bu rəqəm 109 min ton olmuşdur. Tərəvəz istehsalı da bu dövrdə 0,5 milyon ton artaraq 1 milyon 500 min tona çatmışdır.

İstehsalın artımı nəinki ölkəmizə kənd təsərrüfatı məhsullarının idxalını azaltmış, həmçinin bizə ixrac imkanı yaratmışdır. Təkcə ötən il pomidor ixracından 177 milyon, xurmadan 114 milyon, pambıq və pambıq məhsullarından 108 milyon, fındıqdan 100 milyon, almadan 38 milyon dollar gəlir əldə edilmişdir.

Dövlət proqramlarının hədəfi bölgələrdə bütün sahələrin inkişafına yönəlib. Məqsəd regionlarda sənaye, emal, xidmət, turizm və digər sahələri inkişaf etdirməkdir. Lakin əsas hədəf məhsul istehsalını artırmaqla həm yerlərdə əhalinin məşğulluğunu, həm də əsas strateji hədəf sayılan ərzaq təhlükəsizliyini təmin etməkdir.

Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda növbəti illərdə də aqrar sektorun inkişafına xüsusi önəm veriləcəyini bildirərək demişdir: "Kənd təsərrüfatı və sənaye istehsalı IV Proqramda xüsusi yer tutur. Əlbəttə, infrastruktur layihələri də diqqətdədir. Ancaq qeyd etdiyim kimi, onların böyük hissəsi başa çatıb, yaxud da ki başa çatacaq. Ona görə iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir... Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial daha böyükdür və biz yeni bazarlara çıxmalıyıq".

Sözsüz ki, qarşıya qoyulan bu hədəflərə çatmaq üçün ilk növbədə regionlarda böyük kapital qoyuluşu həyata keçirilməlidir. Təkcə sonuncu, yəni IV Dövlət Proqramının icrası üçün 17 milyard manatdan çox vəsaitin qoyulması nəzərdə tutulub. Bu vəsaitin 13 milyard manata yaxını dövlət tərəfindən yatırılacaq, qalan 4,6 milyard manatının özəl sektor tərəfindən qoyulması planlaşdırılır.

Heç kəsə sirr deyil ki, aqrar sektor sahibkarlara investisiya qoymaq üçün cəlbedici sahə deyil, risk böyükdür. Belə halda investorlar yalnız onlara edilən güzəştlər hesabına aqrar sektora sərmayə qoya bilərlər. Bunun üçün isə ölkəmizdə hər cür şərait yaradılıb. Kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisindən savayı bütün növ vergilərdən azaddırlar. Onlara güzəştli qiymətlərlə texnika, yanacaq, mineral gübrələr, toxum, cins heyvanlar, eləcə də bir çox məhsulların istehsalı üçün subsidiyalar verilir. Bu da sərmayə üçün əlverişli şəraitdir.

Üstəlik, Prezident İlham Əliyev bölgələrin inkişafına xüsusi önəm verir. Dövlət başçısı tez-tez regionlara səfərlər edir, sakinlərlə görüşür, onların istək və arzularının həyata keçməsi üçün tədbirlər görür. Dövlət başçısına bölgələrə səfərləri zamanı məlum oldu ki, ölkəmizin xalçaçılıq sahəsində böyük potensialı olsa da, bundan istifadə edilmir. Xalçaçı qadınlar arasında isə işsizlik var. Prezident bu problemi həll etmək üçün operativ tədbirlər gördü. Nəticədə 2016-cı ildən 2018-ci ilədək "Azərxalça" ASC-nın 20 filialı açıldı və bu gün həmin müəssisələrdə 1700-dən çox toxucu qadın çalışır.

Mayın 7-də Prezident İlham Əliyev "Azərxalça" ASC-nin Qobustan filialının açılışında iştirak etmişdir. Ölkə rəhbərinin 2018-ci ildə imzaladığı sərəncama əsasən Qobustan Xalça İstehsalat Emalatxanasının tikintisi və təchizatı üçün dövlət büdcəsindən 2 milyon manat vəsait ayrılmışdı. İndi fəaliyyətə başlayan bu filialda 150 toxucu və 14 inzibatçı-təsərrüfat işçisi çalışır.

Dövlət başçısı filialın açılışında ölkəmizdə xalçaçılığın əhəmiyyətli yer tutduğunu vurğulayaraq demişdir: "Artıq 20 fabrik hazırdır. Ümumiyyətlə, 31 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Hesab edirəm ki, növbəti bir-iki il ərzində qalan fabriklər də istifadəyə veriləcək və beləliklə, Azərbaycan öz qədim sənətini yaşatmaq istiqamətində çox önəmli addım atmış olacaq... Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək. Bildiyiniz kimi, bizim xalçalarımız dünyanın aparıcı muzeylərində nümayiş etdirilir. Xalçaçılıq bizim qədim sənətimizdir və əsrlər boyu biz bu sənəti yaşadırıq".

Məlumdur ki, xalçaçılıqda xammal kimi əsasən yundan istifadə olunur. Dövlət başçısı Qobustan rayonunda səfərdə olarkən oradakı Regional Yun və Boyaq Fabrikinin tədarük məntəqəsinin açılışında da iştirak etmişdir. Qeyd edək ki, Qobustandakı tədarük məntəqəsi 14 rayon və şəhəri (Qobustan, Şamaxı, İsmayıllı, Ağsu, Göyçay, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, Ağdaş, Zərdab rayonlarının, Şəki şəhərinin və Bakının Qaradağ) əhatə edir. Həmin rayonların fermerləri istehsal etdikləri yunu bu məntəqəyə təhvil verməklə daha əvvəlki illərdə olduğu kimi alıcı axtarışına çıxmayacaqlar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində "Azərbaycana sevgi ilə" konsert proqramı təqdim olunub





Mayın 11-də Heydər Əliyev Mərkəzində opera sənətinin tanınmış nümayəndələri Anna Netrebko, Yusif Eyvazov və Elçin Əzizovun iştirakı ilə "Azərbaycana sevgi ilə" konsert proqramı təqdim edilib.





AZƏRTAC xəbər verir ki, anşlaqla keçən konserti izləyənlər arasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub.

Müxtəlif operalardan ariyaların daxil olduğu konsert proqramında ifaçıları Fuad İbrahimov və Murtuza Bülbülün dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

Musiqili gecədə C.Verdinin, F.Çileanın və C.Puççininin əsərləri ifa olunub.

Qeyd edək ki, Anna Netrebko (soprano) Rusiyanın XXI əsrdə ən görkəmli opera ifaçılarından biridir. O, yaratdığı obrazlar, cəsarətli və dramatik repertuarı ilə opera sənəti tarixində mühüm yer tutur. Anna Netrebko 2007-ci ildə ABŞ-ın məşhur "Time" jurnalının dünyanın ən nüfuzlu 100 şəxsinin siyahısına daxil olub. Rusiya Federasiyasının xalq artisti və Dövlət mükafatı laureatı olan A.Netrebko müxtəlif ölkələrdə bir çox mükafatlarla, o cümlədən Rusiya ilə Azərbaycan arasında musiqi sənəti sahəsində əməkdaşlığın möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif edilib. Diskoqrafiyasına operalar, konsert proqramları, bestsellerə çevrilmiş solo musiqi albomları və həyat yoldaşı Yusif Eyvazovla duetləri daxildir.

Yusif Eyvazov (tenor) Azərbaycanın xalq artistidir. İfaçının repertuarına dramatik istedad və vokal bacarıqlarını göstərməyə imkan verən opera partiyaları daxildir. 2010-cu ildə Rusiya Dövlət Akademik Böyük Teatrında Kavaradossi ("Toska", C.Puççini) obrazı ilə debütü onun beynəlxalq karyerasının başlanğıcı olub. Bundan sonra La Skala, Metropoliten-opera, Vyana, Paris operaları və digər nüfuzlu teatrlardan dəvət alıb. Onun adı "Dünyanın ən yaxşı tenorları" kitabına daxil edilib.

Azərbaycanın xalq artisti Elçin Əzizov (bariton) "Bakılı oğlanlar" Şən və Hazırcavablar Klubunun üzvü olub. 2005-ci ildə Avstriyada "Motsareum" Universitetinin Yay akademiyasında təhsil alıb, daha sonra Bakı Musiqi Akademiyasının Vokal şöbəsində təhsilini davam etdirib. 2007-ci ildə Qalina Vişnevskayanın opera studiyasında çalışıb. 2008-ci ildən Rusiya Dövlət Akademik Böyük Teatrının solistidir. Dünyanın böyük opera və konsert salonlarında çıxış edir. 2017-ci ildə Anna Netrebko və Yusif Eyvazovla birlikdə opera ulduzlarının "Half Way Around The World" konsert turunda iştirak edib. Tur çərçivəsində 6 ölkənin 8 şəhərində konsertlər verib.

# DSX-nin Qarabağ atları üzərində süvarilər dəstəsinin və rəqs ansamblının təqdim etdiyi şou-kompozisiya Britaniya Kraliçasının marağına səbəb olub

*Əvvəli 1-ci səh.*

Şounun aparıcısının təmsilçilərimizin möhtəşəm çıxışından əvvəl etdiyi təqdimatda şou-kompozisiyanın əsas elementlərindən birini təşkil edən, 1500 ildən çox tarixə malik Azərbaycan kəlağayısının hələ iki əsr öncə - 1851-ci ildə Londonda keçirilmiş böyük sərgidə şahzadə Albert tərəfindən öz həyat yoldaşı Kraliça Viktoriyaya hədiyyə olunmasını vurğulaması böyük diqqətlə qarşılanıb.









Qədim Vindzor qəsrinin ərazisində keçirilən bu tədbirdə Azərbaycan nümayəndə heyətinin nümayiş etdirdiyi şou-kompozisiyanı hər gün on minlərlə insan canlı izləyib, televiziya vasitəsilə milyonlarla tamaşaçı ecazkar milli musiqimizin sədaları altında Qarabağ atlarının gözəlliyinə, süvarilərimizin hünər və igidliyinə, rəqqaslarımızın çılğın və hərarətli rəqslərinə heyran olublar.

Böyük Britaniyanın nüfuzlu "Dailymail.co.uk" internet portalı "Vindzor Kral Atçılıq Şousu"na həsr etdiyi reportajında Azərbaycanın Qarabağ atlarının iştirakı ilə nümayiş etdirilən şou-kompozisiyaların Kraliça II Elizabetin ən sevimli tamaşalarından olduğunu xüsusi qeyd edib.

Mayın 11-də tədbirdə iştirak edən Ülyahəzrət II Elizabet "Azərbaycanın kəlağayısı və Qarabağ atları" şou-kompozisiyasına tamaşa etdikdən sonra Azərbaycan nümayəndə heyətinin üzvlərini - Azərbaycan Atçılıq Federasiyasının vitse-prezidentləri Sakit Məmmədovu, Bəhruz Nəbiyevi və idmançı Xədicə Qulubəylini qəbul edib. Görüşdə Kraliçanın həyat yoldaşı, Edinburq hersoqu şahzadə Filipp, Kraliçanın nəvəsi, Sasseks hersoqu şahzadə Harri və digər rəsmi şəxslər iştirak ediblər. Azərbaycanın xalq rəssamı Sakit Məmmədovun "Bahar qızı" adlı rəsm əsəri və Azərbaycan kəlağayısı Ülyahəzrət II Elizabetə hədiyyə kimi təqdim olunub. Təqdimat zamanı rəsm əsərində təsvir edilən Bahar qızının Azərbaycanın qədim Novruz bayramının simvollarından biri olması, kəlağayının üzərində təsvir edilmiş xan qızı Natəvan, Qarabağ atları, milli musiqi alətləri, xarı bülbül bitkisi haqqında geniş məlumat verilib.

Ülyahəzrət II Elizabet Azərbaycan təmsilçilərinin nümayiş etdirdikləri möhtəşəm şou-kompozisiyaya, rəsm əsəri və milli kəlağayının hədiyyə edilməsinə görə dərin minnətdarlığını bildirib.

***"Azərbaycan"***

# *Hikmət HACIYEV:* "25 ildir atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir"

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın atəşkəsin 25 illiyi ilə əlaqədar verdiyi açıqlamanı AZƏRTAC-a şərh edib.



Şöbə müdiri bildirib ki, Ermənistan gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal edib. İşğal olunmuş ərazilərdə bir milyondan artıq azərbaycanlı qanlı etnik təmizləməyə məruz qalıb və 25 ildən artıqdır ki, onlar qaçqın və məcburi köçkün statusunda yaşamaq məcburiyyətindədirlər. Ermənistanın Azərbaycana qarşı təcavüzü həmçinin mülki insanlara qarşı çoxsaylı hərbi cinayətlərlə müşayiət olunub.

Hikmət Hacıyev vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar qəbul etdiyi dörd qətnamədə Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsi pislənilir, ölkəmizin ərazi bütövlüyü və suverenliyi, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olması bir daha təsdiqlənir, işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

"Atəşkəs sülh deyil. Ermənistan rəhbərliyi tərəfindən də etiraf olunur ki, 25 il keçməsinə baxmayaraq, atəşkəs davamlı sülhə çevrilməyib. Bu müddət ərzində atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir", - deyə H.Hacıyev əlavə edib.

O, həmçinin deyib ki, danışıqlar prosesinin formatı dəyişməzdir. Danışıqlar münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında aparılır.

Şöbə müdiri diqqətə çatdırıb ki, Ermənistan tərəfi regionda davamlı sülhün təmin olunmasını həqiqətən istəyirsə, mövcud format əsasında danışıqlar prosesində konstruktiv şəkildə iştirak etməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmalı, azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmalarına mane olmamalıdır. Yalnız bundan sonra regionda davamlı sülh təmin oluna bilər.

# *XİN:* Zöhrab Mnatsakanyan Ermənistanın təcavüzkar siyasətini "demokratiya" pərdəsi ilə ört-basdır etmək istəyir

"Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın yerli tert.am portalına verdiyi müsahibədən aydın olur ki, onun başlıca hədəfi erməni ictimaiyyətidir. Müsahibədə uzun-uzadı demokratik tendensiyalardan danışan xarici işlər naziri görünür ki, Ermənistanın təcavüzkar və işğalçı siyasətini məhz "demokratiya" pərdəsi ilə ört-basdır etmək istəyir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri mətbuata açıqlamasında Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Leyla Abdullayeva bildirib.

XİN rəsmisi qeyd edib ki, Azərbaycanın ərazilərini işğal edən, bu ərazilərdə yerli azərbaycanlıların etnik təmizlənməsini həyata keçirən, beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq BMT Nizamnaməsini və ATƏT-in Helsinki Yekun Aktını, BMT Təhlükəsizlik Şurasının qətnamələrini rədd edən Ermənistan rəsmisinin "demokratik sistem və qaydalar"dan bəhs etməsi gülünc olduğu qədər saxtadır.

Z.Mnatsakanyanın münaqişənin həlli ilə bağlı söylədikləri Ermənistanın onillərdir davam edən təcavüz və işğal siyasətinə son qoymaq, beynəlxalq hüququn prinsiplərinə, ilk növbədə, dövlətlərin beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət nümayiş etdirərək normal qonşuluq münasibətləri qurmaq niyyətindən uzaq olduğunu göstərir. Əgər Ermənistan xarici işlər naziri həqiqi demokratiya quruculuğu, xalqının rifahı və bölgənin təhlükəsizliyi və tərəqqisində maraqlıdırsa, o zaman Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal çıxarılmalı və bu ərazilərdən didərgin salınmış məcburi köçkünlərin öz evlərinə qayıtmasına əngəl törədilməməlidir. Yalnız bundan sonra ümumbəşəri dəyərlərdən, demokratiyadan və insan həyatına verilən önəmdən danışmaq olar.

# Antiazərbaycançı şəbəkənin böhtan kampaniyası puç oldu

## Azərbaycanda təhlükəsizliyin qorunması istiqamətində aidiyyəti dövlət və hüquq mühafizə orqanları çox səmərəli fəaliyyət göstərirlər

Bu gün müstəqil dövlətçiliyimizin qarantı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionun lider dövlətinə çevrilən Azərbaycan hərtərəfli dinamik inkişafı ilə seçilir, dünyada sabitlik və təhlükəsizlik məkanı kimi tanınır.

Dövlət Təhlükəsizliyi Xidmətinin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Prezidentinin yürütdüyü siyasət, müvafiq dövlət qurumlarının və hüquq mühafizə orqanlarının birgə səmərəli fəaliyyəti, eləcə də önəmli ictimai dəstək nəticəsində respublikamızda dönməz sabitlik və təhlükəsizlik mövcuddur. Bu baxımdan, həmçinin Azərbaycanın dünyada nüfuzunun artması və beynəlxalq təhlükəsizlik sisteminin fəal iştirakçısı olması nəticəsində ölkəmizə etibar edilir, böyük investisiya qoyulur, irimiqyaslı layihələr gerçəkləşdirilir.

Azərbaycan yüksək təhlükəsizlik sisteminə malik dövlət kimi mötəbər beynəlxalq tədbirlərin keçirilməsi sahəsində böyük təcrübəyə malikdir. Bundan əvvəl ölkəmizdə keçirilən bütün irimiqyaslı beynəlxalq tədbirlərdə, o cümlədən nüfuzlu idman yarışlarında çoxsaylı xarici qonaqların iştirak etməsi, Azərbaycana böyük turist axınının olması, onların rahat şəraitdə ölkəmizin qədim tarixi və zəngin mədəniyyəti ilə tanış olmaları üçün yaradılan hərtərəfli şərait və ən əsası bir daha ölkəmizə qayıtmaq istəkləri Azərbaycanda mövcud qonaqpərvərliyin və yüksək təhlükəsizliyin təminatının əyani göstəricisidir. Əlbəttə ki, bu, Prezident İlham Əliyevin həyata keçirdiyi və alternativi olmayan inkişaf və təhlükəsizlik siyasətinin parlaq nümunəsidir.

Azərbaycanda təhlükəsizliyin etibarlı təmin olunması üçün xarici dövlətlərin müvafiq strukturları ilə ikitərəfli və çoxtərəfli formatlarda qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilir. Hətta bu gün güclü təhlükəsizlik sisteminə malik ölkələrin tərəfdaş xüsusi xidmət orqanlarının təmsilçiləri də görüşlərdə etiraf edirlər ki, Azərbaycanda mövcud sabitliyə və təhlükəsizliyə həsəd aparmaq olar.

Çox qürurvericidir ki, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycanın nəinki regionun, ümumilikdə dünyanın təhlükəsizlik sisteminin formalaşmasında da böyük rolu var.

Hazırda Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən digər hüquq mühafizə orqanları ilə birlikdə Azərbaycanın milli maraqlarına və təhlükəsizliyinə mümkün təhdidlərin qarşısının alınması üçün bütün zəruri qabaqlayıcı, preventiv tədbirlər həyata keçirilir, əməliyyat şəraitinə nəzarət olunur.

## İdmanı bir daha siyasi alətə çevirmək cəhdi

### UEFA Avropa Liqasının finalı ərəfəsində ölkəmizə qarşı qarayaxma kampaniyası uğursuzluğa məhkumdur

*Əvvəli 1-ci səh.*

Xatırlatmaq yerinə düşər ki, mühüm enerji və nəqliyyat layihələrinin reallaşdırılması, qlobal xarakterli tədbirlərin keçirilməsi, o cümlədən 2015-ci ildə I Avropa Oyunları, 2016-cı ildə IV İslam Həmrəyliyi Oyunları, illik əsasda təşkil olunan “Formula-1” Azərbaycan Qran - prisi və digər mötəbər tədbirlər ərəfəsində ölkəmiz qarayaxma kampaniyasının hədəfinə çevrilmişdir. Həmişə də idmanla yaxından-uzaqdan əlaqəsi olmayan qondarma məsələlər ortaya atılmış, Azərbaycanı hər vəchlə qara rəngdə göstərmək cəhdi göstərilmişdir. Buna baxmayaraq, sözügedən idman turnirlərini izləmək məqsədilə ölkəmizə gələn çoxsaylı əcnəbilər ölkəmizdə ictimai asayişin təmin olunmasından, sabitlik və təhlükəsizlik mühitindən məmnun qalmışlar.

Bu dəfə də belədir. Ölkəmizi istəməyən dairələr insan hüquqları və qanunun aliliyi məsələsini qabardır. Lakin Azərbaycan dəfələrlə sübut etmişdir ki, bu iddiaların heç bir əsası yoxdur, elə Qərb ölkələrinin özündə də belə hallar kifayət qədərdir. Başqa bir iddiaya görə, guya ingilis azarkeşlərinin Bakıya rahat gəlməsi üçün viza rejimi problem yaradır. Lakin bu iddianın əksinə olaraq sadələşdirilmiş viza rejimi hər bir xarici vətəndaşın asanlıqla viza almasına şərait yaradır.

Başqa bir iddia “Arsenal”ın erməni əsilli oyunçusu Henrix Mxitaryanın Azərbaycana gəlməsi ilə bağlıdır: guya bu futbolçu Bakıda olarkən onun təhlükəsizliyinə hansısa təhdid var. Tamamilə yalandır. Azərbaycan tərəfi Avroliqanın finalını təşkli etmək üçün ərizə verərkən istisnasız olaraq bütün futbolçuların təhlükəsizliyinə yüksək səviyyədə zəmanət vermişdir. Bu yaxınlarda rəsmi Bakı həmin zəmanəti təkrar-təkrar təzələmişdir. Axı nə qədər zəmanət vermək olar ki, böhtançılar əsassız iddialarını geri götürsünlər?

Digər tərəfdən, erməni idmançısı ilk dəfə deyil ki, Azərbaycana gəlir. Əvvəllər də erməni əsilli atletlər müxtəlif beynəlxalq turnirlər zamanı ölkəmizdə olmuş, hətta dövlət başçısı onlara şəxsən mükafat təqdim etmiş və heç bir xoşagəlməz hadisə baş verməmişdir. “Arsenal”lı futbolçu təhlükəsizliyi bəhanə gətirib Bakıya gəlmək istəmirsə, bu onun və təmsil etdiyi komandanın şəxsi problemidir.

Bu baxımdan UEFA Avropa Liqasının finalı ərəfəsində Böyük Britaniya Xarici İşlər Nazirliyinin yaydığı Azərbaycana aid səyahət tövsiyələri ən azı təəccüb doğurur. Birləşmiş Krallıqla Azərbaycan arasında qarşılıqlı əlaqələrin miqyası hamıya məlumdur. Britaniyalılar ölkəmizdə yeni deyillər. Onlar uzun illərdir Azərbycan neft sənayesinin inkişafına töhfə verirlər. İndiyədək hansısa britaniyalının ölkəmizdə özünü təhlükəsizlik baxımından narahat hiss etməsi faktı qeydə alınmamışdır. Amma nə qədər qəribə görünsə də, britaniyalı Azərbaycana neft-qaz dalınca gələndə təhlükəsizliklə əlaqədar hansısa tövsiyə ya da düşmür, futbol matçını izləməyə gələndə isə diplomatiya idarəsi əl-ayağa düşür.

Digər tərəfdən, Böyük Britaniyanın xarici siyasət idarəsi bilməmiş deyil ki, Azərbaycan sabitlik və cinayətkarlığın səviyyəsinə görə dünyanın ən əlverişli ölkələri ilə bir sırada durur. Hazırda paytaxtımız planetin ən təhlükəsiz şəhərlərindən biridir.

Belə bir məqamı da qeyd etmək lazımdır ki, UEFA Avropa Liqasının final matçının vaxtı və yeri təyin olunanda heç kim bu iki komandanın İngiltərəyə məxsus olacağını ehtimal edə bilməzdi. Digər tərəfdən, təcrübə göstərir ki, bir çox hallarda finala çıxan komandalar oyunlarını öz vətənlərindən min kilometrlərlə uzaqda keçirmiş və heç vaxt belə əsassız iddialar irəli sürülməmişdi.

Beləliklə, Avropanın antiazərbaycançı dairələrinin idmanı növbəti dəfə siyasi alətə çevirmək cəhdi göz qabağındadır. Amma əbəs yerə. Cürbəcür əsassız iddialar irəli sürərək ölkəmizin beynəlxalq nüfuzunu ləkələmək məqsədi güdənlər yanılırlar. Azərbaycan tərəfi qarşıdan gələn idman tədbirini tələb olunan səviyyədə təşkil edərək bir daha beynəlxalq idman ictimaiyyətinin rəğbətini qazanacaq, bədxahları isə məyus edəcək.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

*Antiazərbaycan qüvvələrin çirkin kampaniyasının növbəti vasitəsi:*

## UEFA Avropa Liqasının Bakı finalı

Hazırda ölkəmiz mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final qarşılaşmasına ciddi hazırlaşır. Artıq bu mötəbər idman hadisəsinə son hazırlıq işləri görülür, dünyada ən müasir idman qurğularından olan Bakı Olimpiya Stadionunda futbolçular, komandaların texniki heyəti, eləcə də azarkeşlər və mətbuat nümayəndələri üçün ən yüksək şərait yaradılır. Təəssüf ki, ölkəmiz bu mühüm qarşılaşmaya ciddi hazırlıq prosesində olduğu bir vaxtda Qərbdəki bəzi məkrli qüvvələrin çirkin qarayaxma kampaniyaları ilə üzləşib.

AZƏRTAC xəbər verir ki, budəfəki kampaniyada ölkəmiz əleyhinə idmanla heç bir aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələrin irəli sürülməsi, beynəlxalq ictimaiyyətdə bu mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmaması barədə yanlış təsəvvürlərin formalaşdırılmasına çalışılır.

Son illər Avropada müəyyən qüvvələr tərəfindən başladılan “qara piar” əslində bir o qədər də təəccüb doğurmur. Çünki Azərbaycanın əvvəlki illərdə də evsahibliyi etdiyi bütün mötəbər tədbirlər və yarışlar zamanı bu cür hallara rast gəlinib. Bütün qarayaxma kampaniyalarında olduğu kimi, bu dəfə də Azərbaycana qarşı guya ölkəmizdə insan hüquqlarının, qanunun aliliyi prinsiplərinin pozulduğunu iddia edirlər. Ən son Qərbin gözü qarşısında - Fransada təşkil olunan “sarı jiletlər” aksiyaları zamanı polisin zorakılıqları, yüzlərlə nümayişçinin ən sərt tədbirlərlə cəzalandırılması və həbs edilməsi fonunda Azərbaycana qarşı insan hüquqlarının pozulmasını tələb edən qüvvələr, görəsən, gözlərini niyə geniş açmırlar? Azərbaycanda insan hüquqlarının, qanunun aliliyinin təmin olunması istiqamətində atılan addımlar, həyata keçirilən islahatlar, xüsusilə dövlət başçısının son bir neçə ayda imzaladığı fərman və sərəncamlar hətta Avropa dövlətlərinin özləri tərəfindən də təqdirlə qarşılanır.

Ölkəmiz əleyhinə səslənən əsassız iddialardan biri də guya viza rejiminin problem yaratmasıdır. Qeyd edək ki, viza rejiminin sadələşdirilməsi dövlət başçısının daim diqqət mərkəzində saxladığı məsələlərdən olub. Xüsusilə ölkəmizin evsahibliyi etdiyi mötəbər idman yarışları ərəfəsində Azərbaycan Prezidenti viza rejiminin sadələşdirilməsi ilə bağlı sərəncamlar imzalayır. Həmin məkrli qüvvələrin diqqətinə təkcə bunu çatdırmaq kifayətdir ki, dövlət başçısı cəmi iki ay əvvəl - martın 11-də UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakıda keçirilməsi ilə bağlı ölkəyə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsinə dair sərəncam imzalayıb. Həmin sərəncama əsasən, əcnəbi və vətəndaşlığı olmayan şəxs mayın 15-dən iyunun 1-dək Azərbaycanın beynəlxalq hava limanlarında asanlıqla viza ala bilər. Bu təcrübə Azərbaycanın evsahibliyi etdiyi əvvəlki idman yarışlarında uğurla tətbiq olunub. Ona görə də bu məntiqsiz iddianın heç bir əsasa söykənmədiyini təcrübə əsasında qəti şəkildə deyə bilərik.

Digər bir məqam isə ondan ibarətdir ki, dünyanın ən bahalı şəhərlərindən biri olan London təmsilçilərinin guya Bakıda hotellərin qiymətlərinin baha olması ilə əlaqədar narazılığı insanda ikrah hissi oyadır. Son illər Azərbaycanda dünyanın ən məşhur brendlərinə məxsus dəbdəbəli hotellər istifadəyə verilib. Bununla yanaşı, ölkəmizdə müxtəlif ulduzlu digər hotellər də var. Bu gün Bakıda 20-30 dollardan tutmuş müxtəlif qiymətlərə qədər on minlərlə azarkeşi qəbul etməyə imkanı olan yüzlərlə hotel fəaliyyət göstərir. Son illər Azərbaycana artan turist axını, xüsusilə “Formula-1” kimi dünyanın ən elit idman yarışı ilə əlaqədar ölkəmizə gələn əcnəbilər heç vaxt hotellərin qiyməti və ya xidmətin səviyyəsindən narazılıq ifadə etməyiblər. Bu isə həmin iddianın da məkrli və əsassız olduğunu tam sübut edir.

İrəli sürülən iddialardan birinə gəlincə, tam əminliklə demək olar ki, “Arsenal” klubunda çıxış edən erməni əsilli Henrix Mxitaryanın Azərbaycana gəlməsində heç bir problem yoxdur və buna ən yüksək səviyyədə təhlükəsizlik zəmanəti verilib. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin bu barədə rəsmi açıqlamasında da qeyd olunub ki, əvvəlki illərdə ölkəmizdə keçirilmiş ilk Avropa Oyunları, Ümumdünya Şahmat Olimpiadası və digər mühüm yarışların hər birində olduğu kimi, bu dəfə də dövlətimiz iştirakçı ölkələrə təhlükəsizlik təminatı ilə bağlı məktub göndərib. Bundan başqa, qeyd etmək lazımdır ki, erməni idmançıların Azərbaycandakı yarışlarda iştirakı birinci dəfə deyil. Həmin yarışlar ərzində erməni idmançılar üçün heç bir problem və ya çətinlik baş verməyib. Təkcə bu faktı qeyd etmək lazımdır ki, “Bakı 2015” I Avropa Oyunlarında fəxri kürsüdə yer alan ermənistanlı idmançıya mükafatı məhz dövlət başçısı İlham Əliyev təqdim edib.

Bu gün Azərbaycan dünyada ən sabit, kriminogen durumun aşağı səviyyəsinə görə lider ölkələrdən biri kimi tanınır. Təkcə idman yarışlarının təşkili zamanı asayişin mühafizəsi ilə bağlı görülən tədbirlər deyil, son illər ölkəmizə turist axınının güclənməsinin, Azərbaycanın miqrasiya prosesində təyinat ölkəsinə çevrilməsinin də əsasında məhz güclü sabitliyin hökm sürməsi dayanır.

O ki qaldı Azərbaycanın təşkilatçılıq qabiliyyətinə, bunu demək kifayətdir ki, ölkəmiz bu sahədə peşəkarlığını dəfələrlə sübut edib. Xüsusilə, tarixdə ilk dəfə keçirilən və Avropanın 50 ölkəsindən 6 mindən çox atletin mübarizə apardığı I Avropa Oyunlarına cəmi 30 ay müddətində sürətlə hazırlaşaraq bu mötəbər idman yarışını ən yüksək səviyyədə təşkil edən Azərbaycanın bu sahədəki uğurları nəinki Beynəlxalq və Avropa Olimpiya komitələri, digər mötəbər qurumlar tərəfindən də yüksək qiymətləndirildi. Azərbaycanın son illərdə evsahibliyi etdiyi digər mötəbər idman yarışları - 1600 şahmatçının qatıldığı 42-ci Ümumdünya Şahmat Olimpiadası, qadınlar arasında voleybol üzrə Avropa çempionatı, 800-dək idmançının qatıldığı cüdo, 1500 nəfərin mübarizə apardığı BMX velosipedi üzrə dünya çempionatlarının, 4 minə yaxın atletin iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunlarının gimnastikanın müxtəlif növləri üzrə ən mötəbər beynəlxalq turnirlərin iştirakçıları ölkəmizdə idmançılar və komandaların üzvləri üçün ideal şəraitin yaradıldığını bildiriblər. Bütün bunlar Azərbaycan əleyhinə səsləndirilən ittihamların əsassız olduğunu ifadə edən faktlardır.

Azərbaycanda təhlükəsizliyin və sabitliyin tam şəkildə təmin olunduğu Xarici İşlər Nazirliyinin məsələyə münasibətində də qəti şəkildə ifadə edilib: “Azərbaycan çoxsaylı mötəbər beynəlxalq tədbirlərə, o cümlədən beynəlxalq miqyaslı idman yarışlarına evsahibliyi edir. Bu sırada I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını, “Formula-1” üzrə Azərbaycan Qran-prisini və UEFA Çempionlar Liqası çərçivəsində 2017-ci ildə keçirilmiş “Qarabağ” - “Çelsi” oyununu qeyd etmək olar. Bu idman yarışlarını izləmək məqsədilə respublikamıza gələn çoxsaylı əcnəbi ölkə vətəndaşları Azərbaycanda ictimai asayişin təmin olunmasından, mövcud sabitlik və təhlükəsizlik mühitindən və bu kimi irimiqyaslı idman tədbirlərinin təşkilatçılığından məmnun qalıblar. Azərbaycan, həmçinin turizm ölkəsidir və hər il ölkəmizə çoxsaylı əcnəbi turistlər səfər edir. Ölkəmizin malik olduğu digər müsbət xüsusiyyətlərlə bərabər, Azərbaycanda hökm sürən əmin-amanlıq, sabitlik və təhlükəsizlik əcnəbi turistləri cəlb edən vacib amillər sırasındadır”.

Sonda onu da qeyd etmək yerinə düşər ki, dünyanın ən mötəbər idman qurumları idmanın siyasətə alət edilməməsinin vacibliyini dəfələrlə vurğulayır, yarışlarda siyasi çağırışlar edən idmançılara cəza tədbirləri tətbiq edirlər. Bu baxımdan Azərbaycanın evsahibliyi etməyə hazırlaşdığı UEFA Avropa Liqasının final qarşılaşmasından ölkəmizə qarşı çirkin niyyətlər üçün istifadə edilməsi Qərbin özünün müəllifi olduğu və təbliğ etdiyi dəyərləri lazım gəldikdə heçə saydığını göstərir.

## *Leyla ABDULLAYEVA:* “Avropa Liqasının finalı ərəfəsində Böyük Britaniya XİN-in Azərbaycana aid səyahət tövsiyələri anlaşılan deyil və təəccüb doğurur”

UEFA Avropa Liqasının mayın 29-da Bakıda keçiriləcək final oyunu ərəfəsində Böyük Britaniya Xarici İşlər Nazirliyinin yaydığı Azərbaycana aid səyahət tövsiyələri anlaşılan deyil və təəccüb doğurur.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib.

XİN rəsmisi bildirib: “Azərbaycanda təhlükəsizlik və sabitlik tam şəkildə təmin olunub. Azərbaycan çoxsaylı mötəbər beynəlxalq tədbirlərə, o cümlədən beynəlxalq miqyaslı idman yarışlarına evsahibliyi edir. Bu sırada I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını, “Formula-1” üzrə Azərbaycan Qran-prisini və UEFA Çempionlar Liqası çərçivəsində 2017-ci ildə keçirilmiş “Qarabağ” - “Çelsi” oyununu qeyd etmək olar. Bu idman yarışlarını izləmək məqsədilə respublikamıza gələn çoxsaylı əcnəbi ölkə vətəndaşları Azərbaycanda ictimai asayişin təmin olunmasından, mövcud sabitlik və təhlükəsizlik mühitindən və bu kimi irimiqyaslı idman tədbirlərinin təşkilatçılığından məmnun qalıblar”.

“Azərbaycan həmçinin turizm ölkəsidir və hər il ölkəmizə çoxsaylı əcnəbi turistlər səfər edir. Ölkəmizin malik olduğu digər müsbət xüsusiyyətlərlə bərabər, Azərbaycanda hökm sürən əmin-amanlıq, sabitlik və təhlükəsizlik əcnəbi turistləri cəlb edən vacib amillər sırasındadır”, - deyə Leyla Abdullayeva əlavə edib.

## *Səfir:* “Əminəm ki, britaniyalı futbol azarkeşləri gözəl Bakı şəhərində keçirəcəkləri vaxtdan məmnun qalacaqlar”



“Arsenal” və “Çelsi” komandalarını UEFA Avropa Liqasının mayın 29-da keçiriləcək final oyununa vəsiqə qazanmaları münasibətilə təbrik edirəm. Hər iki komanda əvvəllər Bakıda oyun keçirsələr də, bir-birinə qarşı oynamayıb. Tarixdə ilk dəfə İngiltərə Premyer Liqasının iki klubu Bakının möhtəşəm stadionunda qarşı-qarşıya gələcək və mən bu oyunun yaddaqalan bir hadisə olacağından əminəm.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Böyük Britaniyanın Azərbaycandakı səfiri Karol Krofts Facebook sosial şəbəkəsindəki səhifəsində yazıb.

“Biz əvvəlki vaxtlardan daha çox britaniyalı futbol azarkeşinin Bakıya səyahət edəcəyini gözləyirik. Əminəm ki, onlar bu gözəl şəhərdə keçirəcəkləri vaxtdan məmnun qalacaqlar. Azərbaycan özünün yüksək qonaqpərvərliyi ilə tanınır və mən britaniyalı azarkeşlərin burada mehribanlıqla qarşılanacaqlarına inanıram.

Bu həftə Böyük Britaniya polisindən, o cümlədən “Arsenal” və “Çelsi” komandalarından olan nümayəndələr Bakıya gələcəklər. Biz hamımız Azərbaycanın rəsmi qurumları ilə oyunun təşkil olunması istiqamətində sıx əməkdaşlıq edirik. Mən bizə bu işdə dəstək göstərən hər kəsə təşəkkür edir və hər iki komandaya bu önəmli gündə uğurlar arzu edirəm”, - deyə səfir qeyd edib.

## *Zemfira MEFTAXƏTDİNOVA:* “Azərbaycan mötəbər beynəlxalq yarışları yüksək səviyyədə keçirməyə qadir olduğunu dəfələrlə sübut edib”

UEFA Avropa Liqasının mayın 29-da Bakıda keçiriləcək final oyunu ərəfəsində antiazərbaycan qüvvələrin növbəti dəfə fəallaşaraq ölkəmizə qarşı qarayaxma kampaniyasına başlaması təsadüfi deyil.



Azərbaycanın regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsi, bərabərhüquqlu tərəfdaşlığın genişlənməsi, dünyada söz və nüfuz sahibinə çevrilməsi istiqamətində yürütdüyü müstəqil siyasəti bəzi qüvvələrin narahatlığını artırır. Həmin qüvvələr ölkəmizin dünyada nüfuzunun artmasından, onun dünyada ən mühüm məsələlərin müzakirə olunduğu beynəlxalq mərkəzə çevrilməsindən daha çox narahat olmağa başlayır və hər vəchlə buna mane olmağa çalışırlar. UEFA Avropa Liqasının final oyunu kimi mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəy formalaşdırılması yönündə aparılan məkrli kampaniya da məhz bu qara niyyətli qüvvələrin növbəti addımıdır. Ölkəmizə qarşı idmana aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələrin irəli sürülməsi məhz bu amillərlə bağlıdır. Bunu olimpiya çempionu Zemfira Meftaxətdinova AZƏRTAC-a açıqlamasında deyib.

Dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri olan Azərbaycanın həm də güclü idman dövləti kimi tanındığını bildirən olimpiya çempionu ölkəmizdə nüfuzlu idman tədbirlərinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq bildirib: “Azərbaycan irimiqyaslı turnirlərin keçirilməsində zəngin təcrübəyə malikdir. Ölkəmiz əvvəlki dövrdə də sübut edib ki, istənilən mötəbər beynəlxalq tədbiri, idman yarışını ən yüksək səviyyədə təşkil etməyə qadirdir. 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsi, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, “Formula-1” Qran-prisi və digər mühüm tədbir və yarışlar ərəfəsində də ölkəmiz qarayaxma kampaniyalarının hədəfi olub. Hazırda irəli sürülən iddialar da növbəti mühüm tədbir ərəfəsində Azərbaycanın beynəlxalq nüfuzunu ləkələmək məqsədi daşıyır. Azərbaycanın sülhsevər ölkə, xalqımızın qədirbilən və qonaqpərvər olmasını ölkəmizə gələn qonaqlar dəfələrlə etiraf ediblər. Əvvəllər də yarışlar zamanı erməni idmançılar Azərbaycana gəliblər. Hətta dövlət başçısı erməni idmançılara mükafatları şəxsən təqdim edib. Bu yarışlar zamanı Ermənistan və digər ölkələrin idmançılarına qarşı heç bir insident, xoşagəlməz hadisə baş verməyib. “Arsenal” klubunun futbolçusu erməni əsilli Henrix Mxitaryanın da Azərbaycana gəlməsində heç bir problem yoxdur və ən yüksək təhlükəsizlik zəmanəti verilib. İdman təkcə yarışların təşkili deyil, həm də xalqlar, dövlətlər arasında sülh, dostluq və həmrəyliyin yaradılması üçün gözəl vasitədir. Əminik ki, Bakıda keçiriləcək UEFA Avropa Liqasının final oyunu da xalqların dostluq və qardaşlıq bayramına çevriləcək”.

## UEFA Avropa Liqasının final oyunu ilə bağlı qarayaxma kampaniyası Azərbaycanın beynəlxalq nüfuzunu ləkələmək məqsədi güdür

Bir neçə gündür ki, Qərbdəki ənənəvi antiazərbaycan dairələr ölkəmizə qarşı növbəti çirkin kampaniyaya başlayıblar. Bu qarayaxma kampaniyası mayın 29-da Bakıda keçiriləcək UEFA Avropa Liqasının final oyunu ilə bağlıdır.

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın Xarici İşlər Nazirliyi də daxil olmaqla, bir sıra instansiyalar idmana heç bir aidiyyəti olmayan, qərəzli və reallıqdan uzaq subyektiv mülahizələr irəli sürür, beynəlxalq ictimaiyyətdə bu mühüm idman tədbirinin Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəy formalaşdırmağa çalışırlar.

Azərbaycan ictimaiyyəti müəyyən xarici antiazərbaycan dairələrin mühüm tədbirlər ərəfəsində ölkəmizə qarşı belə qərəzli kampaniyalar təşkil etməsinin dəfələrlə şahidi olub.

Mühüm enerji və nəqliyyat layihələrinin reallaşdırılması, qlobal xarakterli tədbirlərin keçirilməsi, 2012-ci ildə Avroviziya, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları və digər tədbirlər ərəfəsində Azərbaycan qərəzli təşkil olunmuş qarayaxma kampaniyasının hədəfi olub.

Hazırda irəli sürülən iddialar hansılardır?

Bəzi dairələr insan hüquqları, qanunun aliliyi məsələsini qabardırlar. Lakin Azərbaycan dəfələrlə sübut edib ki, bu iddiaların heç bir əsası yoxdur. Qərb ölkələrinin özündə belə hallar kifayət qədərdir.

İddia olunur ki, viza rejimi problem yaradır. Ancaq Azərbaycanda sadələşdirilmiş viza rejimi bu iddiaları tam təkzib edir və hər bir xarici vətəndaşa çox asan şəkildə viza almasına şərait yaradır.

Hotellərin baha olması iddiasının da heç bir əsası yoxdur. Çünki Bakıda 20-30 dollardan başlayaraq daha yüksək qiymətlərə hotellər on minlərlə idman azarkeşini qəbul etməyə imkan yaradır.

Uçuş biletlərinin qiymətinin yüksək olması iddiasına gəlincə, Azərbaycan Hava Yolları - AZAL hazırda Böyük Britaniyaya və geriyə reyslərə beynəlxalq mülki aviasiyada mümkün olan ən aşağı qiymətlərdən başlayaraq qiymətlər tətbiq edir. AZAL-ın təklif etdiyi qiymətlər mövcud beynəlxalq qiymətlərdən daha aşağıdır.

“Arsenal” klubunun oyunçusu, erməni əsilli Genrix Mxitaryanla bağlı iddia da tam əsassızdır. Bu futbolçunun Azərbaycana gəlməsində heç bir problem yoxdur və Azərbaycan hökuməti ona ən yüksək təhlükəsizlik zəmanəti verib. Məlumdur ki, əvvəllər də erməni idmançılar Azərbaycana gəliblər, hətta Prezident İlham Əliyev onlara şəxsən mükafat təqdim edib və heç bir insident, xoşagəlməz hal qeydə alınmayıb.

Sabitliyə və cinayətkarlığın səviyyəsinin aşağı olmasına görə Azərbaycan dünyanın ən əlverişli ölkələri ilə bir sırada durur.

Göründüyü kimi, ayrı-ayrı dairələrin irəli sürdüyü iddialar əsassızdır və qərəzlidir.

Azərbaycan əvvəlki dövrdə də sübut edib ki, istənilən böyük beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil etməyə qadirdir.

UEFA finalının vaxtı və yeri təyin olunanda heç kim bu komandaların İngiltərəyə məxsus olacağını ehtimal etmirdi. Digər tərəfdən, təcrübə göstərir ki, bir çox hallarda finala çıxan komandalar oyunlarını öz vətənlərindən min kilometrlərlə uzaq ölkələrdə keçiriblər və heç vaxt belə iddialar irəli sürülməyib, qarayaxma kampaniyaları təşkil edilməyib.

Britaniyalıların özləri də yaxşı bilirlər ki, kifayət qədər çılğın və iğtişaşlar törətməyə meyilli olan ingilis fanatlar bir o qədər də arzuolunan qonaq deyillər. Buna baxmayaraq, Azərbaycan bütün məsələləri ən yüksək səviyyədə təşkil etməyə hazırdır və bunu dəfələrlə sübut edib.

Bütün bunlar göstərir ki, xaricdəki maraqlı dairələr Azərbaycanın dünyada nüfuzunun artmasından, onun yüksəksəviyyəli iqtisadi, siyasi, humanitar mərkəzə çevrilməsindən narahatdırlar.

Növbəti mühüm tədbir ərəfəsində heç bir əsası olmayan iddiaların irəli sürülməsi Azərbaycanın beynəlxalq nüfuzunu ləkələmək məqsədi güdür.

Bu növbəti çirkin kampaniya əvvəllər olduğu kimi, Azərbaycan ictimaiyyətində kəskin narazılıq yaradıb.

2004 Heydər Əliyev Fondu 2019

# Göz nurunu itirənlərin ziya ocağı

## Mehriban Əliyevanın şəfqəti yüzlərlə uşağın dünyasını işıqlandırır

*Əvvəli 1-ci səh.*

### Məktəbin çempionları

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 saylı respublika xüsusi internat məktəbindəyik. 1936-cı ildən fəaliyyət göstərən məktəbin hazırkı binası 1961-ci ildə inşa olunub. 2006-cı ildə isə "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, yenidənqurma və bərpa işlərindən sonra istifadəyə verilib. Üçmərtəbəli binada uşaqlar üçün lazım olan bütün şərait yüksək səviyyədə və müasir standartlara uyğun yaradılıb.

İlk olaraq məktəbin direktoru İradə Vəzirovanın otağına gedirik. Otaq məktəb şagirdlərinin müxtəlif yarış və müsabiqələrdə qazandıqları fəxri fərmanlar, diplomlar, kuboklar və medallarla bəzədilib. İradə xanım şagirdlərinin qazandıqları nailiyyətlər barədə fəxarətlə danışır. Deyir, bacardığımız qədər çalışırıq ki, uşaqlar müxtəlif yarışlarda, müsabiqələrdə iştirak etsinlər. Məsələn, Fövqəladə Hallar Nazirliyinin keçirdiyi "Fövqəladə hallar uşaqların gözü ilə" müsabiqəsinə hər il qatılırlar və yüksək nəticələr əldə edirlər.

Qolbol üzrə Azərbaycan milli komandasının 7 üzvü bu internat məktəbinin şagirdləridir. Milli komanda 2 dəfə Avropa çempionatında, 3 dəfə beynəlxalq yarış və turnirlərdə iştirak edib. Bir müddət öncə məktəbin şagirdi Gülnar Rəhimova İranda xizəksürmə üzrə paralimpiya oyunlarında 2 qızıl medala layiq görülüb. Məktəbin cüdo komandası da müxtəlif kuboklar qazanıb. 16 yaşlı cüdoçu Həcər Mirzəyeva isə paralimpiya oyunlarından 6 il ərzində 72 medal alıb. Bütün bu mükafatlar direktorun otağının ən qiymətli dekorları, bəzəkləridir.








### Bəzi valideynlər aylarla uşaqlarına baş çəkmir

İradə Vəzirova bizi məktəblə tanış edərək, sinif otaqlarını bir-bir gəzdirir, şagirdlər, müəllimlər haqqında məlumat verir. Hazırda məktəbdə 299 şagird təhsil alır. Onlardan 135-i məktəbdə daimi qalır. Məktəbə gələ bilməyən bir neçə şagirdə isə evində dərs keçilir. Birinci mərtəbədə ibtidai sinif şagirdlərinin otaqları, xüsusi istirahət kabineti və yeməkxana var.

Məktəbdə yaşayan uşaqların günü səhər saat 7-də başlayır. Yataq otaqları üçüncü mərtəbədə yerləşir. Tərbiyəçilər azyaşlı uşaqları yuyundurur, geyindirir, qızların saçlarını darayıb, yığıb düşürdürlər birinci mərtəbədəki yeməkxanaya. Hava yaxşı olanda yeməkdən öncə həyətdə idmanla da məşğul olurlar. Məktəbdə şagirdlərə 4 dəfə yemək verilir.

İ.Vəzirova menyunun zəngin olduğunu deyir: "Uşaqların sağlamlığı üçün bütün faydalı yeməklər menyuya daxildir. Səhər yeməyi saat 8-ə qalmış bitir. Saat 8-də isə dərs başlayır. Burada təhsil alan şagirdlərin əksəriyyətinin görmə qabiliyyəti ya olduqca zəifdir, ya da tamamilə yoxdur. Hətta müəllimlər arasında da bir neçə gözdən əlil var. Bəzi uşaqları həftəsonu valideynləri gəlib evə aparır. Elələri də var ki, aylarla uşaqlarına baş çəkmirlər təəssüf ki... Biz uşaqlara sevgi, qayğı, diqqətlə yanaşırıq. Hər birinin məktəb, idman formaları, gecə köynəkləri, dərslikləri dövlət tərəfindən pulsuz verilir. Hər axşam yatağa girməzdən öncə uşaqların ayaqları yuyulur. Hər gün corabları, 10 gündən bir yataq dəstləri dəyişdiriliir. Onlara öz balalarımız kimi sevgiylə qulluq edirik".

### Məktəbin "parnik"i, yetişmiş çiyələklər, inkubator cücələri...

İradə Vəzirovanın məktəbin bütün şagirdlərinin ad və soyadını əzbərdən bilməsi diqqətimizi çəkir. Bu hələ harasıdır?! Nəinki şagirdləri, hətta onların valideynlərini də tanıyır, üstəlik, ailələrindəki problemlərdən də halidir. Təəssüf ki, buradakı şagirdlərin çoxu sağlamlıqları ilə yanaşı, sakit ailə ortamından, isti ata-ana qucağından da məhrumdur.

- Məktəbdə boşanmış, problemli ailələrin uşaqları həddən çoxdur. Ailədəki durum da uşağın psixologiyasına pis təsir edir. Bəlkə aşağı siniflərdə şagirdlər o qədər də bunun fərqində olmurlar. Amma 5-ci sinifdən sonra görürsən uşaq dəyişib, əvvəlki kimi deyil, özünü başqa cür aparır. Onlara daha diqqətlə yanaşırıq. Görəndə hansısa uşaq sinif yoldaşları ilə qaynayıb-qarışmır, kənara çəkilir, psixoloqumuz Hüsniyyə Hüseynova onunla danışır, terapiya kursu keçir. Ümumiyyətlə, məktəbdə davranış pozuntusu olan, problemli uşaqlar az deyil. Keçən il bir şagird heç cür dərsdə oturmurdu. Bir uşağımız düz 1 il boyunca məktəbə gələndə ağladı. Psixoloqumuz hər gün belə uşaqlarla danışır, onları gəzdirir, sakitləşdirirdi. Amma bu il 1-ci sinfə gələn şagirdlərin biri də ağlamadı. Özü də öyrənməyə həvəsli, aktiv uşaqlardır. Psixoloji problemi olan uşaqlarla məşğələ istirahət otağında aparılır. Otağın bir küncündə divan qoyulub. Ehtiyac olduqda uşaqları orada uzandırıb sakitləşdirirlər. Bu otaq, adından da göründüyü kimi, uşaqların istirahət otağıdır. Orada müxtəlif stolüstü oyunlar təşkil edilir, pazllar yığırlar. Görməyən uşaqlar üçün xüsusi pazllar var, onu elə dəqiqliklə yığırlar ki, məəttəl qalırsan. Uşaqların zehinlərini və əl duyğularını inkişaf etdirmək üçün bu oyunların faydası var. Çalışırıq uşaqlar maraqlı işlərlə məşğul olsunlar. Həyətyanı sahəmiz var. Bir müddət öncə uşaqlar orada zanbaqlar əkdilər. Kiçik sahədə "parnik" düzəltmişik. Ora pomidor, xiyar şitilləri əkirlər. Yetişəndə dərib, yuyub yeyirlər. Əkdikləri çiyələklər yetişib artıq. Hətta keçən il inkubatorda cücə çıxardılar və bir müddət saxladılar. Uşaqlar belə işlərdən böyük zövq alırlar.

Direktor qeyd etdi ki, internat məktəbində təhsil ümumtəhsil proqramına əsasən keçilir. Yəni buradakı təhsil sistemi digər orta məktəblərdəki ilə eynidir. Hətta görmə qabiliyyəti olmayan uşaqlar da eyni dərslikdə eyni tapşırıqları öyrənir. Sadəcə əlifba fərqlidir. İnternat məktəbinin digər orta məktəblərdən fərqi odur ki, burada təhsil 12 illikdir.




### Heydər Əliyev Fondunun xüsusi hədiyyəsi

Məktəbin ikinci mərtəbəsində sinif otaqları ilə yanaşı, idman zalı və xüsusi sinif var. Xüsusi sinif Heydər Əliyev Fondunun BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi "Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsi çərçivəsində yaradılıb. 2007-ci ildə açılışı olan sinfə fond tərəfindən müvafiq tədris vəsaitləri, kor və görmə qabiliyyəti zəif uşaqlar üçün Almaniyadan gətirilmiş xüsusi kompüter dəsti hədiyyə edilib. Burada həmçinin audiostudiya və kitabxana var. Brayl əlifbası ilə Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabı kompüterin yaddaşına köçürüb oxumaq, səsləndirib dinləmək, musiqiyə qulaq asmaq, internetə bağlanmaq, məktublaşmaq mümkündür. Fondun təşəbbüsü ilə məktəbin nəzdində mətbəə də yaradılıb. Burada Brayl əlifbasında dərslik və dərs vəsaitləri çap olunur. Mətbəədə çap olunan dərs vəsaitləri gözdən əlil uşaqların dərsliklərə olan ehtiyacını tam təmin edir.

İradə Vəzirova deyir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq bu məktəbə gəlir, şagirdlərlə görüşür, onların təhsili, asudə vaxtlarının təşkili ilə maraqlanır, əl işləri ilə tanış olur: "Hətta son səfəri zamanı uşaqların öz əlləri ilə düzəltdikləri gəlin kuklası Leyla xanımın çox xoşuna gəldi. Uşaqlar həmin kuklanı sevinə-sevinə ona hədiyyə etdilər. Çox məmnun qaldı. Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları ərəfəsində "Buta" sarayında uşaqlar üçün ənənəvi şənlik təşkil edir. Bizim məktəb də o bayramda iştirak edir. Mehriban xanım orada uşaqlarla görüşür, onları təbrik edir, sevinc bəxş edir. Sağ olsun Mehriban xanım və Leyla xanım, daim bizi diqqətlərində saxlayırlar, uşaqlara qayğı, nəvaziş göstərirlər".

### Gələcəyin heykəltəraşları

Yeri gəlmişkən qeyd edək ki, internat məktəbində kukla düzəltmək şagirdlərin sevimli məşğuliyyətinə çevrilib. Daha çox da qızların. Oğlanlar isə heykəltəraşlıqla məşğul olurlar. Bunun üçün məktəbdə xüsusi emalatxana fəaliyyət göstərir. Direktor vurğulayıb ki, həmin emalatxanada Qala qoruğunda işləyən heykəltəraş-rəssam Tamerlan Mirzəliyev və kukla ustası Fərəh Əliyeva uşaqlara dərs keçir: "Uşaqlar bu dərsləri o qədər sevirlər ki... Əvvəl gildən adi qab düzəldirdilər. Bu xüsusi gili müəllim özü alıb gətirir. Gili sobada bişirirlər və hazırlayırlar. İndi heykəltəraşlığa keçiblər. Plastilindən heykəllər, taxtadan oyma düzəldirlər. Bunları çox böyük həvəslə, maraqla edirlər. Fərəh Əliyeva uşaqlara kukla sənətinin sirlərini öyrədir. Lazım olan bütün materialları - parçalar, muncuqlar, əşyalar, şinyonlar alırıq. Qızlar kuklanı sıfırdan özləri düzəldir, paltarını tikir, şinyonla saç qoyur, üzünü çəkirlər. Bu, onlar üçün bir sənətdir. Şagirdlərin zövqlə düzəltdikləri bütün kuklaları, heykəlləri, qabları, əl işlərini, hətta çəkdikləri rəsmləri də saxlayırıq. Bacarıqlı, istedadlı uşaqlarımız çoxdur. Bəlkə də gələcəkdə hansısa bu sənətlərdən birini daha da inkişaf etdirəcək. Bəlkə də gələcəkdə hansısa biri rəssam, yaxud kukla ustası olacaq. Ola bilər ki, biz gələcəyin görkəmli bir heykəltəraşını yetişdiririk..."

*Öyrəndiklərini, bacarıqlarını nümayiş etdirməyə həvəsli, çöhrələrindən təbəssüm əskilməyən uşaqlarla sağollaşıb, məktəbi xoş təəssüratla tərk edirik. Bəli, bu uşaqların gözlərinin işığı zəifdir, bəzilərində isə heç yoxdur. Amma biz o gözlərdə başqa işıq, parıltı gördük - ümid işartısı, həyat qığılcımı... Məhdudiyyətlərə rəğmən, öyrənmək, inkişaf etmək, irəli getmək əzmi... Sönməz həyat eşqi... Bu da onu deməyə əsas verir ki, bu təhsil ocağı gözünün nuru zəif olan uşaqlara dünyanı, həyatı daha rəngli, daha gerçək görməyə kömək edəcək. Onları cəmiyyətimizə, vətənimizə əsl ZİYALI kimi yetişdirəcəklər.*

***Xəyalə MURADLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Yeni məktəb binası şagirdlərin ixtiyarına verildi





Gəncədə ümumtəhsil məktəblərinin yenidən qurulması davam edir. Təhsil müəssisələrinin bir qismi yenidən tikilməklə yanaşı, bəziləri də əsaslı şəkildə təmir edilmişdir. Onların bir qismi dövlət vəsaiti hesabına, bəziləri isə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə müasirləşdirilmişdir.

Bu günlərdə yenidən qurulan məktəblərin siyahısına 7 nömrəli orta məktəb də əlavə edilmişdir. Ümummilli lider Heydər Əliyevin 96-cı ildönümü gününə təsadüf edən məktəbin açılışında böyük sevinc yaşanmışdır.

Açılış mərasimində çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov deyib ki, ulu öndərin ad günü ərəfəsində istifadəyə verilən bu məktəb Gəncənin təhsil sistemində aparılan yenidənqurma işlərinin davamıdır.

Mərasimdə o da vurğulanmışdır ki, Gəncə təhsil sisteminin yenilənməsini daim diqqət mərkəzində saxlayan və onun inkişafına dəstək olan birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva son illər qədim Nizami yurdunun məktəblilərinə böyük qayğı göstərərək, bu sahədə bir çox layihələrin icrasını reallaşdırmışdır. Onun göstərdiyi qayğı nəticəsində bir neçə məktəb tikilmiş, onlarca məktəb əsaslı şəkildə təmir edilmişdir.

Məktəbin direktoru Sevda Sadıqova demişdir ki, məktəbdə 975 şagird təhsil alır və burada Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Təhsil ocağında təlim-tərbiyənin yüksək səviyyədə qurulmasının nəticəsidir ki, ali məktəblərə qəbul olunan məzunların sayı ildən-ilə artır. Təkcə keçən il məktəb məzunlarından 3 nəfəri 600-dən yuxarı, 5 nəfəri 500-dən çox bal toplayaraq müxtəlif universitetlərə daxil olmuşdur.

İştirakçılar məktəbdə yaradılan şəraitlə tanış olmuşlar. Əsaslı təmirdən sonra məktəbdə 50 sinif otağı, kitabxana, tibb ocağı, idman zalı, laboratoriyalar, kompüter otağı və sair yaradılmışdır ki, bu da tədrisin yüksək səviyyədə aparılmasına imkan verəcəkdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 14-də Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Yoviç aparacaqlar.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Novruzlu, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

1923 *Azərbaycanın özü qədər əbədi* 2019






# Heydər Əliyevin əbədiyaşar xatirəsinə böyük ehtiram

## Yelkənli qayıq yarışı sürət, həyəcan, əzmkarlıq və zəfər festivalına çevrildi

**Əsası ulu öndər tərəfindən qoyulan, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən idman siyasəti, bu sahədə qazanılan nailiyyətlər sayəsində ölkəmiz beynəlxalq səviyyədə nüfuzlu dövlətlərdən biri kimi qəbul olunur.**

Dövlətimizin diqqət və qayğısı ilə əhatə olunan idmançılarımız da bu etimadı layiqincə doğruldurlar. Elə bir mötəbər yarış yoxdur ki, orada ölkəmizi təmsil etməsinlər, medal və mükafatlar qazanmasınlar. Bu həm də müstəqil Azərbaycan dövlətinin gücünü, idmançılarının vətənpərvərliyini göstərir. Sevindirici və qürurverici haldır ki, beynəlxalq yarışlarda uğur qazanan, Azərbaycanı layiqincə təmsil edən idmançılar sırasında yelkənçilər də var.

### Milli parkda bayram ab-havası

Azərbaycan idmanının inkişafında danılmaz rolu olan, gələcək nəsillərin sağlam ruhda böyüməsi üçün hər zaman səylərini səfərbər edən ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF/SFA) və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) birgə təşkilatçılığı ilə mayın 9-da Bakı buxtasında start verilən Yelkənli Qayıq Yarışı ("Baku Sailing Regatta-2019") yekunlaşıb.

Ümumilikdə 30 yelkənçinin iştirak etdiyi yarışda idmançılar "Optimist", "Laser-standard", "Laser 4.7", "Laser-radial" sinifləri üzrə mübarizə aparıblar.

Final günündə Dənizkənarı Milli parkda müxtəlif əyləncəli proqramlar, oyunlar və viktorinalar təşkil olunub. Bununla yanaşı, yarışı daha yaxından izləmək üçün "Yaxt Klub"da şəhərimizin qonaqları və sakinlər üçün əlverişli şərait yaradılıb.

Final günü bütün yarış iştirakçıları "iştirakçı diplomları" ilə təltif olunublar. "Baku Sailing Regatta-2019"un qaliblərini gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Yelkənli İdman Federasiyasının prezidenti Qüdrət Qurbanov, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Nəzrəddin Əhmədzadə, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Cəbrayıl Mahmudlu, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov təltif ediblər.

Yarış iştirakçılarına dərin minnətdarlığını ifadə edən Yelkənli İdman Federasiyasının prezidenti Qüdrət Qurbanov Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində bu gün ölkəmizdə bütün sahələrdə olduğu kimi, idmanda da yüksək nailiyyətlərin əldə olunduğunu vurğuladı.

















İdmançılara uğurlar arzulayan YİF-in prezidenti Azərbaycanda yelkənli idman növünə göstərilən qayğıdan, yelkənçilərin beynəlxalq yarışlarda əldə etdiyi uğurlardan söz açdı. O, valideynlərin övladlarının bu idman növündə iştirakına verdiyi önəmi yüksək qiymətləndirdi.

Dənizkənarı Milli parka bayram əhvali-ruhiyyəsi gətirən Yelkənli Qayıq Yarışı ("Baku Sailing Regatta-2019") əylənmək, yarışı izləmək, yelkənli qayıq idman növü ilə yaxından tanış olmaq üçün əsl fürsət olmaqla yanaşı, hər bir kəs tərəfindən böyük rəğbət və diqqətlə qarşılanıb.

Xatırladaq ki, Yelkənli Qayıq Yarışı ("Baku Sailing Regatta) ikinci ildir ki, təşkil olunur. Ötən il keçirilən Regatta həm paytaxt sakinlərinin, həm də turistlərin böyük marağına səbəb olmuşdu.

Yekunda "Baku Sailing Regatta-2019"un qaliblərinin adlarına aydınlıq gətirilib. "Optimist" sinfi üzrə ümumi yarışda 1-ci, 2-ci və 3-cü yerləri müvafiq olaraq AYİF-in üzvləri Murad Hacızadə, Ayla Babayeva və Kristina Kərimova tutublar. Sonrakı pillələrdə isə Fidan Ağazadə (YİF), Timur Sikaçevski (YİF), Murad İsmayılov (YİF), Səxavət Əzimov (YİF), İsmayıl Həmidov (YİF), Bahadır Məmmədli (YİF), Ülviyyə Əhmədova (Xəzər klubu), Nikita Protasov (Xəzər klubu), Kamilla Haqverdiyeva (YİF) və Emil Əzizli (YİF) yer alıblar.

"Optimist" sinfi üzrə qızlar arasında yarışda isə Ayla Babayeva, Kristina Kərimova və Fidan Ağazadə ilk üçlükdə təmsil olunublar.

"Laser-standard" sinfi üzrə "Xəzər" idman klubunun üzvü Mixail Protasov, "Dənizçi" idman klubunun üzvü Nikita Vilayev və "Xəzər" klubunun üzvü Roman Fərruxov müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülüblər. Elçin İsmayılov ("Dənizçi") isə 4-cü yerlə kifayətlənib.

"Laser 4.7" sinfi üzrə 1-ci, 2-ci və 3-cü yerləri AYİF-in üzvləri İsmayıl Kərimov, Murad Allahverdi və Fəqan Məmmədzadə qazanıblar. Rahim Abdullayev və Coşqun Məmmədli (hər ikisi "Xəzər") sonrakı pillələrdə qərarlaşıblar.

"Laser-radial" sinfi üzrə AYİF-in üzvü Cavid Kərimov 1-ci yeri, "Xəzər" idman klubunun üzvləri Vaqif Qasımov və Rauf Abdullayev 2-ci və 3-cü yerləri tutublar.

### Etimadı doğruldurlar

Aktiv bazası 2014-cü ildən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən 2 baş məşqçi fəaliyyət göstərir. Xatırladaq ki, yelkənçilərimiz bundan əvvəlki yarışlarda da uğurla çıxış edərək ölkəmizin adını uca tutublar. Bu ilin əvvəllərində Azərbaycan Yelkənli İdman Federasiyasının yığma komandası Omanda "Optimist" və "Laser" sinifləri üzrə təşkil olunan "Mussanah Race Week 2019" turnirində mükafatçılar sırasına düşməklə növbəti dəfə onlara göstərilən etimadı doğruldublar.

Ötən il Qazaxıstanın Aktau şəhərində keçirilən "Beynəlxalq Xəzər Kuboku" yarışında kişi idmançılarımız birinci və üçüncü yerlərdə, qızlarımız isə fəxri kürsünün hər üç pilləsində qərarlaşaraq medallara sahib olublar. Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova isə Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasında 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdi.

### Yelkənçilərimizə xüsusi dəvət

Xatırladaq ki, ötən ilin 31 may-3 iyun tarixlərində Yelkənli İdman Federasiyasının komandasının hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədilə təlim düşərgəsi təşkil olunmuşdu. Məşqlərin yüksək keyfiyyətli olması və bu istiqamətdə peşəkarlığın artırılması məqsədilə beynəlxalq səviyyəli məşqçi Draqan Qasiç Yelkənli İdman Federasiyası tərəfindən təlimə cəlb edilmişdi. 30 il məşqçi kimi fəaliyyət göstərən, altıqat dünya və dördqat Avropa çempionu olan Draqan Qasiç məşq prosesindən və idmançılarımızın hazırlığından razı qalmışdı.

Beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən yelkənçilərimiz dəfələrlə ölkə xaricində təşkil olunan təlim-məşq düşərgələrində iştirak ediblər. Toplanışlarda iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitində yarış təcrübələrinin daha da gücləndirilməsidir.

Bütün bunlar onu deməyə əsas verir ki, yelkənli idman növü ölkəmizdə hər il daha da inkişaf edir və idmançılarımız Azərbaycana yeni-yeni uğurlar qazandırırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***






# Daxili işlər naziri Bərdədə vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov mayın 13-də Bərdə Rayon Polis Şöbəsində polis orqanlarının fəaliyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Yevlax, Mingəçevir, Kürdəmir və Zərdab şəhər və rayonlarından qəbul üçün müraciət edən 40 vətəndaş iştirak edib.

Vətəndaşları şəxsən dinləyən nazir onları narahat edən problemlərə operativ baxılması üçün aidiyyəti Baş İdarə, xidmət və ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə həllini tapıb. Polisin fəaliyyətinə aid olmayan ərizələrin aidiyyəti üzrə digər dövlət orqanlarına göndəriləcəyi və onlara mövcud qanunvericiliyə uyğun şəkildə baxılacağı nəzərə çatdırılıb.

Sakinlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə dövlət başçısına minnətdarlıq ediblər. Vətəndaşlar Azərbaycan Prezidentinin ölkəmizin sürətli inkişafına yönəlmiş ardıcıl, məqsədyönlü və qətiyyətli siyasi kursunu bundan sonra da dəstəkləyəcəklərini vurğulayıblar.

Həmin gün nazir R.Usubov kütləvi informasiya vasitələrində öncədən verilmiş elanlara uyğun olaraq, DİN-in Daxili Qoşunlarının Bərdə rayonunda yerləşən hərbi hissəsində yuxarıda adları çəkilən şəhər və rayon polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında həmin bölgələrdə yaşayan, post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək istəyən ümumilikdə 317 şəxs iştirak edib. Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. İddiaçıların arasından daha hazırlıqlı olan 149 nəfər seçilib. Onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün müvafiq tapşırıqlar verilib.

Nazir R.Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək şərəfli polis adını uca tutmalarını, ölkəmizdə hökm sürən dayanıqlı sabitliyin və əmin-amanlığın, o cümlədən vətəndaşların qanunla qorunan hüquqlarının keşiyində hər zaman ayıq-sayıq durmalarını, onların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, göstərilən etimadı doğrultmalarını, öz üzərilərində səylə çalışmalarını tövsiyə edib, gələcək xidməti fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Ərazi polis orqanlarında vakant olan post-patrul xidməti vəzifələrində xidmətə qəbulla bağlı növbəti belə tədbir mayın 18-də DİN-in Daxili Qoşunlarının Qəbələ rayonundakı hərbi hissəsində keçiriləcək.




# “Anatolian Phoenix-2019” təlimində iştirak edəcək Azərbaycanın hərbi helikopterləri Türkiyədədir



“Anatolian Phoenix-2019” beynəlxalq axtarış-xilasetmə təlimlərində iştirak edəcək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) helikopterləri Konya şəhərinə çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi pilotlarımız plana uyğun olaraq hazırlıq məşqlərinə başlayıblar.

Mayın 24-dək davam edəcək hərbi təlimlərdə Azərbaycan HHQ-nin iki “Mi-35” və iki “Mi-17” helikopteri iştirak edir.

# Prezident tapşırığı uğurla icra olunur

## Paytaxtın ekologiyasının qorunmasına yönələn konsepsiyanın ilkin mərləlsi başa çatdı



Dövlət başçısının tapşırıqlarına əsasən, paytaxt Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması işlərini aparıcı Avropa dövlətlərinin iri şəhərləri səviyyəsinə çatdırmaq, paytaxtımızı gözəl məkana çevirmək məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən bu işlərdə böyük təcrübəyə malik Böyük Britaniyanın tanınmış Mott MacDonald şirkəti ilə müqavilə bağlanıb.

Hazırda şirkət tərəfindən Bakı şəhərində məişət tullantıları ilə bağlı yeni konsepsiya hazırlanması işləri aparır. Artıq bu işlərin birinci mərhələsi arxada qalmışdır.

Konsepsiyaya uyğun şəkildə ilkin olaraq paytaxtın Nərimanov rayonunda Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Monitorinq Mərkəzi yaradılıb. Bu mərkəzdə şirkət tərəfindən Böyük Britaniyadan Bakıya ezam olunmuş 2 mütəxəssis 2 həftə ərzində Nərimanov rayonu ərazisindən yığılmış məişət tullantılarının kompozisiyasının araşdırılması işlərini aparmışdılar. Eyni zamanda, məişət tullantılarının yığılma sahəsindən hansı çeşidləmə növlərinin tətbiqi və onların daşınmasında daha səmərəli marşrutların təyin olunması istiqamətində işlər aparılıb. Bu proses bir neçə ay ərzində başa çatdırılacaq və bu işlərin gedişatına paralel olaraq məişət tullantılarının yığılması üçün xüsusi qabların (konteynerlərin) ölçüləri, rəngləri, üzərində yazılacaq loqolar və ən əsası əhali arasında maarifləndirmə işlərinin aparılması nəzərdə tutulub.

Bu layihə uğurla nəticələnəcəyi halda ətraf mühit üçün müsbət təsirlər, həm də Bakı şəhəri üçün iqtisadi faydalar verəcək, regiondakı digər şəhərlər üçün isə gələcəkdə başlanğıc nöqtəsi olacaqdır.

Konsepsiya çərçivəsində artıq 3 aya yaxındır ki, Bakı şəhərində işlər gedir, 7 rayonda (Səbail, Nərimanov, Yasamal, Nəsimi, Binəqədi, Nizami və Xətai) məişət tullantıları üçün yeni müasir konteynerlər qoyulub, digər rayonlarda da yeni konteynerlərin qoyulması nəzərdə tutulub. Konsepsiyanın başa çatdırılması və tam şəkildə həyata keçirilməsi işləri 2019-cu ilin sonu, 2020-ci ilin əvvəlinə nəzərdə tutulub.

Növbəti addım əhali arasında maarifləndirmə işlərinin aparılması və pilot araşdırmalar olacaqdır. Pilot araşdırmaların məqsədi Nərimanov rayonunda təkrar emal üçün tullantı konteynerlərinin yerləşdirilməsi və insanların yeni tullantı modelinə adaptasiyasının öyrənilməsidir. Konteynerlərdəki kompozisiyalar isə ayrıca ölçüləcək. Bu zaman həm də “Təmiz şəhər”lə əməkdaşlıq ediləcək, burada tullantıların daşınması işlərinin aparılması və vətəndaşların adaptasiyası prosesləri öyrəniləcəkdir.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

Bir oyunun izi ilə

# “Qarabağ”ın halal çempionluğu

## Yaxud “Neftçi”nin bilet cığallığına “Qarabağ” növbəti çempionluğu ilə cavab verdi

Dünya bu gün özünün elə bir inkişaf mərhələsinə çatıb ki, istənilən dövlətin uğurunu onun kompleks nailiyyətləri müəyyənləşdirir. Yəni təkcə iqtisadi, diplomatik, siyasi uğurlar hansısa dövləti tam güclü hala gətirmir. Bunları digər sahələr, məsələn, cəmiyyətin rifah halı, mədəniyyət, idman və başqa istiqamətlərdəki zəfərlər də tamamlamalıdır. Həmin sahələr üzrə qazanılan nailiyyətlər dövlətin gücünə güc qatır, onu daha böyük uğurların müəllifinə çevirir. Bu mənada hər bir istiqamət üzrə qazanılan qələbə dövlət, cəmiyyət üçün çox əhəmiyyətlidir. Necə ki “Qarabağ” futbol klubunun uğurları yalnız futbol bayramına çevrilmir, millətimizin qürur, iftixar ünvanı kimi qəbul edilir.



*“Qarabağ”ın azyaşlı, fiziki qüsurlu azarkeşi stadionda azarkeşlik də etdi, baş məşqçi Qurban Qurbanova təbrikini də çatdırdı.*

### Ardıcıl 6-cı çempionluq

“Qarabağ” klubu, onun baş məşqçisi Qurban Qurbanov, sözün əsl mənasında, Azərbaycan idmanında, onun dünyada öz sözünü deməsində fövqəladə işlərə imza atmaqdadır. Cəmiyyət də bu uğurları birmənalı təqdir edir. Bu gün “Qarabağ” Azərbaycanın ən populyar futbol klubudur. Elə Azərbaycanın sərhədlərindən kənarda da ən çox tanınan futbol komandası məhz “Qarabağ”dır! Bu nailiyyətə isə gərgin zəhmət, əzmlə çalışmaq nəticəsində nail olunur.

Futbol üzrə Azərbaycan Premyer Liqasında 2018-2019-cu il mövsümünün yekunlarına əsasən, “Qarabağ” komandası ardıcıl 6-cı, sayca isə 7-ci dəfə ölkə çempionluğunu qazandı! Şübhəsiz ki, burada baş məşqçi Qurban Qurbanovun da əməyi yüksəkdir!

Xatırlatmaq yerinə düşərdi ki, Qurban Qurbanov “Qarabağ”a baş məşqçi təyin edildikdən sonra komanda bir neçə mövsüm çempionluq üzü görmədi. Lakin klub rəhbərliyi Qurbana inandı, onunla işbirliyini davam etdirdi. Nəticə isə göz qabağındadır: ardıcıl çempionluqlar və avrokuboklardakı uğurlar bir-birini əvəzləməyə başladı. Yeddi dəfə ölkə çempionluğu, dörd dəfə UEFA Avropa Liqasının, bir dəfə isə Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə...

### Vədlərini əməldə reallaşdıran Qurbanov

Ən önəmli məqamlardan biri isə budur ki, məhz Qurban Qurbanovun sayəsində “Qarabağ” təkcə futbol oynamadı, eyni zamanda getdiyi hər ölkədə Qarabağ həqiqətlərini dünyaya çatdırdı. İşğal altında olan şəhəri - Ağdamı təmsil etdiyini hamı bildi! Yüz milyonların qarşısında nümayiş etdirdiyi oyunlarla döyüşkən komanda olduğunu, mübarizliyin hər bir azərbaycanlının ruhunda yer aldığını göstərdi!

Səkkiz komanda ilə sanki ölkə yox, paytaxt birinciliyini xatırladan, regionlarda futbolun üzərindən qalın çalın-çarpaz xətt çəkildiyi, azarkeşlərin futboldan küsdüyü bir dövrdə Qurban Qurbanovun “Qarabağ”ı bu haqlı narazılıqları az da olsa aradan qaldırmağa çalışdı.

Vədlərini əməldə reallaşdıran Qurban Qurbanov hələ heç vaxt etdiklərinin minnətini üzə vurmayıb! İstər səlahiyyətlilər olsun, istər sıravi azarkeşlər, istərsə də digər klublar, hamısını özününkü sayıb, doğma yanaşıb, hörmət və ehtiram göstərib. Milli komandadan gedişindən sonra isə yenə əvvəlki ampluasında olduğunu göstərdi. Onun milldəki fəaliyyəti barədə bədxah mövqedə olanlara növbəti dəfə kimin güclü, kimin zəif olduğunu nümayiş etdirdi.

### İdman etikasına sığışmayan hərəkət

Mövsümün son turunda isə “Qarabağ” səfərdə “Neftçi” ilə qarşılaşıb. Görüş ağdamlıların 3:2 hesablı qələbəsi ilə başa çatıb. Amma burada matçın nəticəsindən çox oyundan əvvəl yaşanan xoşagəlməz və anlaşılmaz bir məsələ daha çox diqqəti cəlb etdi. Belə görünür ki, həm “Qarabağ”ın, həm də konkret Qurban Qurbanovun uğurlarını hələ də həzm edə bilməyənlər, bunun ölkə üçün nə dərəcədə əhəmiyyətli olduğunu qavramayanlar, yaxud qəbul etmək iqtidarında olmayanlar da var. Hər halda “Neftçi” futbol klubunun “bilet diplomatiyasına” başqa ad vermək mümkün deyil. Bu klubun idmana, “Qarabağ”la bağlı oyuna yanaşması idman etikasına, əxlaqına da sığmır. Bunun əsl adı cığallıqdır!

“Neftçi”nin Azərbaycan Premyer Liqasının sonuncu - 28-ci turunda “Qarabağ”la oyunun biletlərini yüksək qiymətə - 50 manata satışa çıxarmasının və bunu matçın başlamasına bir neçə saat qalmış açıqlaması azarkeşlər arasında təəccüb doğurdu. Təbiidir ki, belə bir addım həm Ağdam klubunun, həm də komandanın azarkeşlərinin kütləvi narazılığına səbəb oldu. Bu, belə demək mümkünsə, arxadan vurulan zərbədən heç nə ilə fərqlənmədi! Özü də “Neftçi” rəhbərliyinə yaxşı bəlli idi ki, “Qarabağ” azarkeşlərinin böyük əksəriyyəti yurd-yuvasından didərgin düşən məcburi köçkünlərdir! Onlar üçün isə bir oyuna 50 manata bilet almaq maddi baxımdan asan məsələ deyil!

### “Neftçi” nə yaxşı oynamağı bacarır, nə də mərdanə uduzmağı

“Qarabağ”ı oyunda belə xoşagəlməz gedişlə azarkeşlərdən məhrum etmək istəyən “Neftçi” əslində özünü azarkeşlərinin də gözündən saldı! Təəssüf ki, artıq “Neftçi” nə yaxşı oynamağı bacarır, nə də mərdanə uduzmağı! Ən azından o baxımdan ki, paytaxt klubunun təmsilçiləri oyundan sonra “Qarabağ”lıların əlini sıxmalıydı! Amma əsl idmana layiq addımlar atmaqda aciz olduğunu bu ənənəvi məqamda da göstərdi!

Məsələnin mənəvi yükü də böyükdür! Çünki idmanda elə anlar var ki, dəyəri maddiyyatla ölçülmür. Bunların sırasında yer alan vətənpərvərliyi, nizam-intizamı, məsuliyyət və mərifət hissini heç bir halda unutmalı deyilik!



*Qaliblər və onların azarkeşləri*

Azərbaycan futbolunda keçmiş ənənəyə uyğun olaraq “Neftçi”yə “flaqman” deyilir. Amma ötən həftədəki oyunun özü, nəticəsi, ümumiyyətlə son illərdə avrokuboklarda inamlı çıxış göstərir ki, əsl flaqman elə “Qarabağ”dır! Özü də təkcə idmanda yox, həm də mərdanə mübarizə aparmaq məsələsində...

Bütün bunlara baxmayaraq “Qarabağ” klubunun rəhbərliyi əsl centlmenlərə xas addım atdı! “Neftçi”nin qərəzini elə onların öz üzlərinə sərt şillə kimi vurdu: azarkeşlərin mövsümün son oyununu və mükafatlandırma mərasimini stadiondan izləyə bilməsi üçün Ağdam klubu 700 bilet alıb onlara payladı.

### Yerli futbolçular komandadan incik salınır

“Neftçi”nin idmana yaraşmayan bu addımı əslində komandada mənəvi böhran keçirildiyini də göstərir. Düzgün aparılmayan transfer siyasətinin, intizamsızlığın, oyunçular arasında intriqaların ucbatından “Neftçi” yarışda yenə də geridə qaldı. Mövsümün ikinci hissəsində onun çempionluğa hazır olmadığı açıq-aşkar görsənirdi. Klub rəhbərliyinin uğursuz legioner seçimləri sayəsində yerli futbolçuların oynamaq şansı azalıb, müxtəlif bəhanələr gətirilməklə onları klubdan küsdürməyə çalışırlar. Hətta italiyalı məşqçinin də öz dəyişikliklərində və oyunçulara verdiyi tapşırıqlarda futbolçuları həvəsə gətirə bilmədiyi açıq-aşkar görünürdü.

“Neftçi”nin çempion olmaması onu da göstərdi ki, bəzən kənardan gətirilən “adlı-sanlı” futbolçuların da köməyi dəymir! Həm də belə futbolçularda vətənpərvərlik hissi çatmır!

İndi görək Azərbaycan Futbol Federasiyaları Assosiasiyası bu məsələyə necə yanaşacaq. Qarşılaşmalarda azarkeşlər, futbolçular nəsə hörmətsiz hərəkət edəndə cəzalandırılırlar. Görək, AFFA rəhbərliyi bu məsələyə prinsipial yanaşıb hansısa bir tədbir görəcəkmi?

***Elçin CƏFƏROV, “Azərbaycan”***

TEKSAN
SÖNMƏZ ELEKTRİK MMC
Azərbaycan təmsilçiliyi - 23 İL
GENERATORLARIN SATIŞI VƏ SERVİSİ
055/070-771-99-44
012-441-65-53
info@sonmezelektrik.com

## Qubadlı Rayon İcra Hakimiyyəti abadlaşdırma xidmətləri və təmir işlərinin görülməsi üçün

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcək:

**LOT-1.** Abadlaşdırma xidmətləri və təmir işlərinin görülməsi.

Tenderlə əlaqədar məlumat almaq istəyənlər əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Təyyar Eminov**
**Telefon: 018 654 38 68**
**Mobil: 050 286 39 69**
**Ünvan: Sumqayıt şəh., İnşaatçılar qəs., Kimyaçılar küç., 2.**

Tender üzrə bütün prosedurlar (yazışmalar, sənədləşmə və s.) Azərbaycan dilindədir.

Təkliflərin qiymətləndirilməsində aşağı qiymət, yüksək keyfiyyət, işin vaxtında yerinə yetirilməsi, tam şəkildə başa çatdırılması kimi meyarlara üstünlük veriləcəkdir.

**İştirakçının tender təklifi tender zərflərinin açıldığı gündən ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır.**

**İştirak haqqı 150 (bir yüz əlli) manatdır.**
**Qubadlı Rayon İcra Hakimiyyəti**
**VÖEN: 4600025881**
**Sumqayıt şəh., İnşaatçılar qəs., Kimyaçılar küç., 2**

**Turanbank ASC Sumqayıt filialı**
**Kodu: 508212**
**VÖEN: 1300016391**
**Müxbir hesabı:**
**AZ26NABZ01350100000000027944**
**SWIFT BIK: TURAAZ 22**
**Hesab № AZ85TURA36015002260700102944**
**VÖEN: 4600022691**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün 01 iyul 2019-cu il saat 18:00-a qədər aşağıdakı sənədləri poçt vasitəsilə və ya şəxsən təqdim etməlidirlər:

- *tender prosedurunda iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *iştirakçının son bir illik maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə (VÖEN) və kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, ehtiyac olduqda lisenziya) surətləri;*
- *ərizə, tender təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iştirakçının potensial imkanlarının olması haqqında məlumat (müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar);*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair son vergi ilində təmin edilməmiş öhdəliklərin olub-olmaması haqqında arayış.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender dəyərinin 1faizi həcmində bank təminatı ilə birlikdə 01 iyul 2019-cu il saat 18:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Sumqayıt şəhəri, İnşaatçılar qəs., Kimyaçılar küç., 2 ünvanında yerləşən Qubadlı Rayon İcra Hakimiyyətinin binasına təqdim edilməlidir.

İştirakçının tender zərfləri Qubadlı Rayon İcra Hakimiyyətinin binasında 02 iyul 2019-cu il saat 10:00-da açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Azercell
abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən 29.04.2019-cu il tarixdən etibarən yeni "GəncOL2", "GəncOL6" və "GəncOL9" tarif paketləri abunəçilərin istifadəsinə verilmişdir. Yeni tarif paketlərin aktuallığını nəzərə alaraq 14.06.2019-cu il tarixdən etibarən Fakturasız (SimSim) Xətt sisteminə aid nömrələr üçün "GəncOL5" və "GəncOL8" tarif paketlərinə qoşulma dayandırılacaq. Həmin tarif paketlərindən istifadə edən nömrələr isə müvafiq şərtlərdən yararlanmaqda davam edə biləcək.

***Qeyd:***
**Abunəçilər göstərilən dəyişikliklər, Tarif və İnternet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**

# Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan "Böyük dəbilqə" beynəlxalq cüdo turniri başa çatıb

## Azərbaycan komandası yarışda üçüncü yeri tutub

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan "Böyük dəbilqə" beynəlxalq cüdo turniri mayın 12-də başa çatıb.

Heydər Əliyev adına İdman Sarayında keçirilən turnirdə Azərbaycan komandası 1 qızıl, 2 gümüş və 4 bürünc medal əldə edərək ümumi hesabda üçüncü yeri tutub.

Komandamızın aktivinə qızıl medalı Hidayət Heydərov (73 kq), gümüş medalları Nicat Şıxəlizadə (66 kq) və Məmmədəli Mehdiyev (90 kq), bürünc medalları isə Rüstəm Orucov, Telman Vəliyev (73 kq), Zelim Kotsoyev (100 kq) və İrina Kindzerska (+78 kq) yazdırıblar.

Bu nəticə ilə Azərbaycan Fransa, Almaniya, Hollandiya kimi cüdo ölkələrini qabaqlayıb. Bakı turnirinin qalibi 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan Yaponiya yığması olub. Braziliya komandası 2 qızıl, 1 bürünc medalla ikinci yeri tutub.

Qeyd edək ki, yarışda 57 ölkədən 450-yə yaxın cüdoçu mübarizə aparıb. Millimiz turnirdə 43 idmançı (28 oğlan, 15 qız) ilə təmsil olunub.

# Bakıda paracüdo üzrə beynəlxalq Qran-pri yarışlarına start verilib

## İlk gün: 3 qızıl, 3 gümüş, 3 bürünc








Dünən Bakıda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş paracüdo üzrə beynəlxalq Qran-pri yarışlarına start verilib.

Heydər Əliyev adına İdman Sarayında keçiriləcək yarışda 35 ölkədən 214 cüdoçu birincilik uğrunda mübarizə aparır.

Turnirdə ölkəmizi 21 cüdoçu təmsil edir. Kişilərin yarışında 11, qadınların mübarizəsində isə 10 idmançımız tatamiyə çıxacaq.

Yarışın birinci günündə kişilər 60, 66, 73, 81, qadınlar isə 48, 52 və 57 kiloqram çəki dərəcələrində mübarizə aparıblar.

Qran-prinin birinci günündə 12 paralimpiyaçımız tatami üzərinə çıxıb.

Kişilərin yarışında (60 kq) çəki dərəcəsində Vüqar Şirinli bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülüb. Bayram Mustafayev (66 kq) və Hüseyn Rəhimli (81 kq) gümüş, Namiq Abbaslı (66 kq) və Ramil Qasımov (73 kq) bürünc medal qazanıblar. Qadınların yarışında Şahanə Hacıyeva (48 kq) və Sevda Vəliyeva (57 kq) bütün görüşlərini qələbə ilə başa vuraraq Qran-prinin qalibi olublar. Afaq Sultanova (57 kq) gümüş və Bəsti Səfərova (52 kq) bürünc medal qazanıb. Yarışa mayın 14-də yekun vurulacaq.

Qeyd edək ki, Qran-pri "Tokio 2020" XVI Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandırır.

# Əmlak Məsələləri Dövlət Komitəsi daha bir beynəlxalq təşkilatın üzvü olub




Əmlak Məsələləri Dövlət Komitəsi Beynəlxalq Mərzçəkənlər Federasiyasına (FIG) üzv oldu. Belə ki, federasiyanın Vyetnamın Hanoy şəhərində keçirilən Baş Assambleyasında Azərbaycanda torpaq sahələrində mərzçəkmə işinin təşkili və aparılmasını təmin edən qurum kimi komitə federasiyaya üzv seçildi. Bununla komitə mərzçəkmə sahəsində həyata keçirilən beynəlxalq təcrübələrdə yaxından iştirak edəcək, peşəkar kadr potensialı daha da təkmilləşəcək.

Federasiyanın fəaliyyəti daşınmaz əmlak idarəçiliyinin bütün sahələrini əhatə edən 10 peşəkar komissiya tərəfindən həyata keçirilir. Onların 8-də komitənin müvafiq nümayəndələrinin təmsil olunması nəzərdə tutulur. Həmin komissiyalar "Peşəkar standartlar və praktika", "Peşəkar təhsil", "Məkan məlumatlarının idarəedilməsi", "Koordinat yerləşmələri və ölçmələr", "Mühəndis tədqiqatları", "Kadastr və torpaq idarəçiliyi", "Məkan planlaşdırılması və inkişaf", "Qiymətləndirmə və daşınmaz əmlakın idarəedilməsi" sahələrini əhatə edir.

1878-ci ildə təsis edilmiş Beynəlxalq Mərzçəkənlər Federasiyasının (FIG) əsas məqsədi beynəlxalq mərzçəkmə qaydalarının müəyyən edilərək daim təkmilləşdirilməsi və onların ölkə praktikalarında düzgün tətbiqini təbliğ etməkdən ibarətdir. Federasiya qlobal mərzçəkmə üzrə bütün peşəkar sahələri əhatə edən qeyri-hökumət təşkilatı olub, 120-dən çox dövlətin mərzçəkmə assosiasiyalarını, aidiyyəti dövlət qurumlarını, o cümlədən elmi-tədris müəssisələri və mərzçəkmə fəaliyyəti ilə məşğul olan şirkətlərin üzvlüyünü təmin edən və onların fəaliyyətini əlaqələndirən, BMT tərəfindən tanınan qeyri-kommersiya təşkilatıdır.

Federasiyanın üzvləri mərzçəkmə sahəsində peşəkar təcrübələrə dair məlumatları pulsuz əldə etmək, təşkilatın minlərlə kitab, broşür və digər nəşrlərdən ibarət fiziki və elektron kitabxanasından istifadə etmək imkanına malikdir. Həmçinin təşkil olunan seminar, təlim kursları, illik konfrans və forumlarında iştirak etmək, eləcə də qlobal mərzçəkənlər şəbəkəsinin üzvləri ilə peşəkar təcrübə mübadiləsini həyata keçirmək hüquqları var.

***"Azərbaycan"***

*Təkrar*

## "Azərsu" ASC təxirəsalınmaz qəzaların qarşısının alınması üçün təmir-bərpa işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs - Hikmət Qasımovdan, telefon 431-47-67/2249) ala bilərlər.

**İştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **31 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **11 iyun 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyun 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müxtəlif hədəf qrupları üçün öyrədici resursların dizaynı və nəşr işlərinin satın alınması ilə bağlı kotirovka sorğusuna dair Satınalmalar komissiyasının 18 aprel 2019-cu il tarixli qərarına əsasən "GƏL" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 11 may 2019-cu il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına siyirtmələrin və sayğac qutularının satın alınması məqsədilə dərc edilmiş tenderlərində 5 may və 6 may 2019-cu il tarixləri qeyri-iş günləri hesab edildiyi üçün tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 7 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 10 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, agali.mirzeyev@azersu.az +99412 431-47-67 (2249) və Məmmədyar Musayevə, 431-47-67 (2288), mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

**«AZƏRBAYCAN»**
**qəzetinin reklam xidməti**

***Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən 26 may 2014-cü ildə Sabirabad şəhəri M.Hümbətov küç., mənzil 18-də yerləşən "AZE" MMC-yə verilmiş lisenziya (№073983, qeydiyyat nömrəsi FHN/40-01528) itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Dövlət Universitetinin dekanlığı, professor-müəllim heyəti və Cinayət prosesi kafedrasının əməkdaşları kafedranın dosenti Cabir Xəlilova atası

**ZAHİD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi büronun vəkili

**ZAHİD SÜLEYMAN OĞLU XƏLİLOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9053
Sifariş 1590
Qiyməti 40 qəpik